

SOCAR AQS

# Davamlı İnkişaf haqqında Hesabat

## 2021-ci il

# Mündəricat

**Qısaltmaların siyahısı**

**Baş direktorun müraciəti**

**2021-ci il haqqında**

**Hesabat haqqında**

Əhatə dairəsi və metodologiya

Məlumatların toplanması və hesabat metodologiyaları

Əhəmiyyətlilik təhlili

**SOCAR AQŞ haqqında**

Biz kimik

Missiya, gələcəyə baxış və dəyərlər

Maraqlı tərəflərin cəlb edilməsi

**SOCAR AQŞ-də davamlı inkişaf**

Davamlı inkişaf strategiyası və yanaşma

DİM (davamlı inkişaf məqsədləri) ilə uyğunlaşma

Davamlı təchizat zəncirinin idarə edilməsi

**Korporativ idarəetmə**

İdarəetmə strukturu

Etika, uyğunluq və dürüstlük

Şəffaflıq və daxili idarəetmə sistemləri

Risklərin idarə edilməsi

**SOCAR AQŞ-də innovasiya**

Xidmət keyfiyyəti və quyuların istismarı

Texnologiya və innovasiya

**Cəmiyyətə töhfəmiz**

İcmaların cəlb edilməsi

Gənclərin cəlb edilməsi

**SOCAR AQŞ-nin əməkdaşları**

Təlim və inkişaf

İşçilərin rifahı

Müxtəliflik və inklüzivlik

**SOCAR AQŞ-də sağlamlıq və təhlükəsizlik**

SƏTƏM idarəetməsi

Sağlamlıq və təhlükəsizlik mədəniyyətinin dəyişməsi

5-ulduzlu təhlükəsizlik proqramı

**SƏTƏM hesabatı**

Siyasət və prosedurlar

Go kart

**Ətraf mühitin idarə edilməsi**

İqlim dəyişikliklərinə qarşı cavab tədbirləri

Çirklənməyə nəzarət

Tullantıların idarə edilməsi

Su sərfiyyatı

**Göstəricilər cədvəli**

**GRİ indeksi**

**Müstəqil Təminat Bəyanatı**

# Qısaltmaların siyahısı

## İnstitutsional

| | |
|---|---|
| APİ | Amerika Neft İnstitutu |
| GRİ | Qlobal Hesabatlılıq Təşəbbüsü |
| SÜA | Səriştələr üzrə Akkreditasiya |
| İADC | Beynəlxalq Qazma Podratçıları Assosiasiyası |
| BMUSŞ | Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası |
| BMHS | Beynəlxalq Maliyyə Hesabatı Standartları |
| İDHK | İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Komissiya |
| ISO | Beynəlxalq Standartlaşdırma Təşkilatı |
| QHT | Qeyri-Hökumət Təşkilatı |
| SAP | Sistem Analizi Proqramı |
| SPE | Neft Mühəndisləri Cəmiyyəti |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |

## Ətraf mühit

| | |
|---|---|
| $CH_4$ | Metan |
| CO | Karbon monoksid |
| $CO_2$ | Karbon dioksid |
| $CO_2e$ | Karbon dioksid ekvivalenti |
| İQ | İstixana qazı |
| HC | Karbohidrogenlər |
| $N_2O$ | Azot oksidi |
| NMVOC | Qeyri-metan uçucu üzvi birləşmə |
| $NO_x$ | Azot oksidi |
| $SO_x$ | Kükürd oksidi |

## Texniki

| | |
|---|---|
| AƏP | Atqı əleyhinə preventor |
| TXKİS | Texniki Xidmətin Kompüterləşdirilmiş İdarəetmə Sistemi |
| DWOP | Qazma quyusu kağız üzərində |
| TMRQ | Təhlükələrin Müəyyənləşdirilməsi və Riskin Qiymətləndirilməsi |
| YTə / YTe | Yüksək Təzyiq, Yüksək Temperatur |
| KS | Karantin siyahısı |
| ƏO | Əks osmos |
| SMART | Özünə Nəzarət, Təhlil və Hesabat Texnologiyası |
| SƏQM | Su Əsaslı Qazma Məhlulu |

## Sağlamlıq və Təhlükəsizlik

| | |
|---|---|
| SƏTƏM | Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit |
| VİH | Vaxt itkisinə səbəb olan hadisə |
| OHS | Əməyin Mühafizəsi və Təhlükəsizliyi |
| OHSAS | Əməyin Mühafizəsinin və Təhlükəsizliyinin Qiymətləndirilməsi Sistemi |
| KSƏTƏM | Keyfiyyət, Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühit |
| TRİFR | Ümumi qeydə alına bilən xəsarətlərin tezliyi |

## Konseptual

| | |
|---|---|
| İKT | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| ƏSG | Əsas Səmərəlilik Göstəricisi |
| P2P | Tədarükdən ödəməyə |
| STEM | Elm, Texnologiya, Mühəndislik, Riyaziyyat |
| TBL | Üçlü meyar |

## Təşkilati

| | |
|---|---|
| BQM | Bakı Qazma Məktəbi |
| BTİD | Baş Texnoloji İnnovasiyalar Direktoru |
| ÜDM | Ümumi Daxili Məhsul |
| KİS | Kompleks İdarəetmə Sistemi |
| TİES | Təlimin İdarə Edilməsi Sistemi |
| PTXYSP | Profilaktik Texniki Xidmət və Yoxlama Sınağı Proqramları |
| MİTXT | Məhsul İstehsalı və Texniki Xidmət Təcrübələri |
| DİM | Davamlı İnkişaf Məqsədləri |
| ƏHH | Əlavə Hadisə Hesabatı |
| TTS | Təsdiqlənmiş Təchizatçı Siyahısı |

# Baş direktorun müraciəti

**Samir Mollayev**
Baş Direktor



COVID-19 pandemiyası zamanı tətbiq edilən karantinlər dünyaya sübut etdi ki, enerji iqtisadiyyatın və cəmiyyətin irəliləyişinin vacib hissəsidir. Azərbaycanın enerji sahəsi üzrə aparıcı xidmət təminatçılarından biri kimi, biz gələcək nəsillər üçün ətraf mühitin davamlılığının vacibliyini qəbul edirik.

Beləliklə, sənayedəki güclü mövqeyimiz bizə həm cəmiyyətə, həm də ətraf mühitə davamlı müsbət təsir göstərmək imkanı verir. Bu il biz şirkətimizdə prioritet ESG məsələlərinin vahid qaydada idarə olunmasını təmin etməklə, davamlılıq və məsuliyyətli liderlik kimi anlayışları öz əməliyyatlarımıza daxil etdik. Davamlılığı biznes fəaliyyətimizin hər bir aspektinə inteqrasiya etmək üçün çalışarkən, artıq ardıcıl olaraq üçüncü Davamlılıq Hesabatını dərc etməyə hazırlaşırıq. Bu hesabatlar komandamızdan böyük səy tələb edir, çünki bu hesabatda vacib qeyri-maliyyə məlumatları şəffaf və etibarlı şəkildə təqdim edildiyindən, biz onun əhəmiyyətini maraqlı tərəflərə çatdırmağa çalışırıq. 2018-ci ildə ilk dəfə bu yola çıxdığımız gündən indiyə qədər, davamlılığın strateji qərarlarımızın mərkəzində qalması üçün həlledici addımlar atırıq və fərdi səylər göstəririk. Bu il də istisna olmadı, belə ki, biz strategiyamız və ümumi biznes davranışımızla əlaqədar, davamlı inkişafın əsas prinsiplərini nəzərə almaqla, davamlı artımı yenə də prioritet məqsəd kimi müəyyən etdik. Dünya COVID-19 pandemiyasının uzunmüddətli təsirlərindən və sonrakı karantin tədbirlərindən bərpa olduğu bir zamanda, biz bunu hərtərəfli təkrar qiymətləndirmə və fəaliyyətlərin dəyərləndirilməsi vasitəsilə öz əməliyyatlarımızı və biznes proseslərimizi yenidən nəzərdən keçirmək fürsəti kimi qəbul edirik.

Beləliklə, 2021-ci il daxili proseslər və prosedurlarımızın əsaslı şəkildə yenidən qurulması ilə əlamətdar bir ilə çevrildi və bunun nəticəsi olaraq ümumi biznes strategiyamıza yeni yanaşma formalaşdı. Biz təchizat zəncirimizi nəzərdən keçirdik və taktiki satınalma prosesindən strateji satınalma prosesinə keçid etdik. Bazarın əsas iştirakçılarından biri olmaqla biz kiçik və orta müəssisələr üçün davamlı iqtisadi şəraitin artmasına və inkişafına kömək etməyə çalışırıq. Buna görə də, biz strateji satınalma yanaşmamızın bir hissəsi kimi yerli təchizatçılara daha çox diqqət yetirmişik.

Korporativ prioritetlərimizdən biri kimi biz əməkdaşlarımızın və təchizatçılarımızın rifahını qiymətləndirən sağlamlığa və təhlükəsizliyə yönəlmiş mədəniyyət yaratmağa çalışırıq. Biz hesab edirik ki, şirkətimizin uğuru işçilərimizin zəhmətkeşliyi və çalışqanlığı ilə bağlıdır və biz onların uğurlarını SƏTƏM təlimləri və təşəbbüsləri vasitəsilə təmin etməyə çalışırıq. Bu səbəbdən biz 2021-ci ildə “Prosedur intizamı” adlı yeni korporativ təşəbbüs təqdim etmişik ki, bu da iki mərhələdən ibarət olmaqla, Sağlamlıq və Təhlükəsizlik ilə bağlı məsələlərin idarə edilməsində rəhbərliyin daha fəal iştirakını nəzərdə tutur. Bu təşəbbüsün həyata keçirilməsi hesabat ilində xəsarətlərin sayını azaltmaqla sıfır qəza halları ilə əməliyyat effektivliyi əldə etmək məqsədimizə doğru irəliləməyə kömək etdi. Əminik ki, məqsədyönlü səylər hesabına bu təşəbbüs planlaşdırılan müddətə tam çata bilər. Davamlı inkişaf məqsədlərimiz çərçivəsində biz enerjidən daha geniş istifadə imkanları təmin etmək üçün davamlı qazma xidmətləri portfelimizi genişləndirərək, qabaqcıl texnologiyalara sərmayə qoymaqla, fəaliyyətimiz nəticəsində yaranan emissiyaları azaltmaq üçün birgə səylər göstərməyə çalışırıq. İlk addım olaraq, xidmət təchizatımızda istifadə olunan avadanlıqları və 2021-ci ildə fəaliyyətimizin karbon emissiyalarının miqdarını diqqətlə tədqiq etdik.

Etika və uyğunluq bütün əməliyyat və fəaliyyətlərimizin əsasını təşkil edir. SOCAR AQŞ-də bütün əməkdaşlarımız etika və dürüstlük mədəniyyətini inkişaf etdirməyə sadiqdirlər və dəyərlərimizə zidd bir hal ilə qarşılaşdıqda öz sözünü demək hüququna malikdirlər. Təşkilat daxilində etika və uyğunluq prinsiplərinin daha da təşviq edilməsi məqsədilə biz hazırda Uyğunluq Komitəsinin təşkilati strukturumuza daxil edilməsi variantını nəzərdən keçiririk. Hesab edirik ki, bu, bizim etika və dürüstlük prinsiplərimizin həm işçilərin fərdi səylərində, həm də bütün şirkətə təsir edən yüksək səviyyəli qərarlarda öz əksini tapması üçün zəruri addımdır.

Eyni zamanda icmadan işə götürülmüş baş rəhbərlik işçilərinin sayını da artırdıq, çünki, biz peşəkar inkişafın bütün səviyyələrində işləmək üçün imkanların yaradılması yolu ilə icmanın inkişafı istiqamətində səylərimizi davam etdiririk.

COVID-19 pandemiyası və şirkəti əhatə edən restrukturizasiya prosedurları ilə əlaqədar yaranan çoxsaylı maneələrə baxmayaraq, hesabat dövründə nəzərəçarpacaq irəliləyiş əldə edə bildik. Biz ötən ilin nailiyyətləri ilə fəxr edir və gələcək illər üçün qarşımıza qoyduğumuz iddialı məqsədlərə nail olacağımıza inanırıq.

# 2021-ci il haqqında

15-ci il
0 ölüm hadisəsi ilə

59
yeni işçi

Rəhbər vəzifələrin təxminən
50%-i
yerli icmadan işə götürülüb

153
milyon manat gəlir

Tam miqyaslı
restrukturizasiya

ümumi
904
işçi

Rəhbər vəzifələrdə
12%
qadın işçi

2007-ci ildən bəri
0
əhəmiyyətli dağılma

0
Məhdud İş Günü Hadisəsi

0-dır
Ölənlərin sayı

Ümumi təchizatçıların
79%-i
yerli müəssisələrdir

Türkiyədə əkilən
1000
ağac



# Hesabat haqqında

Bu hesabat SOCAR AQŞ tərəfindən dərc olunan üçüncü ardıcıl Davamlı İnkişaf haqqında hesabatıdır. Biz cəmiyyətimizdə uzunmüddətli nəzərəçarpacaq dəyişikliklərə nail olmaqdan qürur duyuruq və buna görə davamlı inkişaf haqqında hesabat təcrübəsi davamlı inkişafa nail olmaq üçün müəssisəmizdə maraqlı tərəflər qarşısında şəffaflığımızı və hesabatlılığımızı artırır.

## Əhatə dairəsi və metodologiya

Davamlı inkişaf haqqında hesabat təcrübəmizi davam etdirərək, davamlılığın bütün qərarlarımıza tətbiqi ilə bağlı səylərimizin dəqiq əks olunmasını təmin etmək üçün hesabat metodologiyamızı mütəmadi olaraq yenidən nəzərdən keçiririk. Bu hesabatların dərc edilməsi ölkədə və onun hüdudlarından kənarda davamlı inkişafa töhfələrimizlə bağlı əldə etdiyimiz irəliləyişlər barədə maraqlı tərəflərimizi məlumatlandırmaq məqsədi daşıyır. Məsul şirkət kimi bu davamlılıq haqqında hesabatın hazırlanması üçün göstərdiyimiz işlər və səylər ilə fəxr edirik.

## Məlumatların toplanması və hesabat metodologiyaları

Bu il biz hesabatımızın GRİ standartlarına və İADC-nin hesabat prinsiplərinə uyğunlaşdırılması işini davam etdirdik. Hesabatda məlumatların aydınlığını və dəqiqliyini təmin etmək üçün biz daxili hesabat sistemlərimizi təkmilləşdirməyə, o cümlədən məlumatların toplanması prosesinin yaxşılaşdırılmasına, məlumatların təqdimatının rəqəmsallaşdırılmasına və hesablama metodologiyalarının optimallaşdırılmasına davam edirik. Məlumat toplamaq üçün biz proses sahibləri ilə müsahibələr aparır, sorğular keçirir, daxili hesabatlara və üçüncü tərəflərin təqdim etdiyi məlumatlara istinad edirik.

**Cədvəl 1. Hesabat haqqında**

| | |
|---|---|
| Müəssisə adı | SOCAR-AQŞ MMC |
| Baş ofis | Bakı, Azərbaycan |
| Hesabatın hüdudları | SOCAR AQŞ |
| Hesabatın müddəti | 1 yanvar 2021– 31 dekabr 2021 |
| Hesabat dövrü | İllik |
| Hesabat sistemi | • Qlobal Hesabatlılıq Təşəbbüsü (GRİ) Standartları (Əsas)<br>• BMT-nin Davamlı İnkişaf Məqsədləri (DİM)<br>• Beynəlxalq Qazma Podratçıları Assosiasiyasının (İADC) hesabat prinsipləri |
| Hesabatın dili | İngilis (Azərbaycan dilində də mövcuddur) |
| Üçüncü tərəflərin iştirakı | Seçilmiş göstəricilər üzrə kənar müstəqil təminat (bax: “Müstəqil Təminat Bəyanatı” bölməsi) |



# Ekoloji göstəricilər

**Cədvəl 2. Emissiyalar və enerji sərfiyyatı üzrə hesabat metodologiyası**

| | İQ emissiyaları və enerji sərfiyyatı | Digər emissiyalar |
|---|---|---|
| Müəssisənin əhatə dairəsi | Azərbaycanda SOCAR AQŞ-nin mülkiyyətində olan bütün generatorlar və nəqliyyat vasitələri | Azərbaycanda SOCAR AQŞ-nin mülkiyyətində olan bütün generatorlar və nəqliyyat vasitələri |
| Standartlar | • GRİ 302 Enerji Açıqlama Standartı<br>• GRİ 305.1-305.5 Emissiyaların Açıqlama Standartı | GRİ 305.7 Emissiyaların Açıqlama Standartı |
| Məlumatların əhatə dairəsi | Karbon dioksid, azot oksidi və metan | Karbon monoksid, azot oksidi, qeyri-metan uçucu üzvi birləşmə və kükürd oksidi |
| Metodologiya | Stasionar qazların termiki təsirinə 1-ci dərəcəli yanaşma | Əhəmiyyətli hava emissiyalarının monitorinqi və hesabatı üçün yerli qanunvericilik |
| Məlumatların mənbəyi | • Daxili hesabat sistemləri<br>• İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Komissiya standart emissiya faktorları | Daxili hesabat sistemləri |

**Cədvəl 3. Digər ekoloji göstəricilər üzrə hesabat metodologiyası**

| | Su | Tullantıların idarə edilməsi və əhəmiyyətli dağılmalar | Biomüxtəlifliyə təsiri |
|---|---|---|---|
| Müəssisənin əhatə dairəsi | SOCAR AQŞ-nin Azərbaycandakı bütün əməliyyatları | SOCAR AQŞ-nin Azərbaycandakı bütün əməliyyatları və yerləşdiyi yerlər | SOCAR AQŞ-nin Azərbaycandakı bütün əməliyyatları |
| Standartlar | GRİ 303 Su və Tullantıların Açıqlama Standartı | GRİ 306 Tullantıların Açıqlama Standartları | GRİ 304 Biomüxtəlifliyin Açıqlama Standartı |
| Məlumatların mənbəyi | Suyun qəbulu və suyun axıdılması | • Təhlükəli tullantılar, o cümlədən qazma şlamları<br>• Təhlükəsiz tullantılar | Əməliyyatların biomüxtəlifliyə təsiri |
| Metodologiya | GRİ 303 Su və Tullantıların Açıqlama Standartı | Əhəmiyyətli dağılmalar və tullantıların icrası ilə bağlı yerli qanunvericilik<br><br>**Hesablama üsulu:**<br>Məişət tullantılarının həcmini kubmetrdən tona çevirmək üçün biz yaranan tullantıların növlərinə əsaslanan orta çevirmə əmsallarından istifadə edirik. | Biomüxtəlifliyə təsirlə bağlı məlumatların təqdim edilməsi üzrə yerli qanunvericilik |
| Məlumatların mənbəyi | Daxili hesabat sistemləri | Daxili hesabat sistemləri | Daxili hesabat sistemləri |

# Sosial göstəricilər

**Cədvəl 4. Sosial göstəricilər üzrə hesabat metodologiyası**

| | Sağlamlıq və təhlükəsizlik | Digər sosial göstəricilər |
|---|---|---|
| Müəssisənin əhatə dairəsi | • SOCAR AQŞ-nin Azərbaycandakı bütün əməliyyatları<br>• Müqavilə növündən asılı olmayaraq Azərbaycanda SOCAR AQŞ-də birbaşa işləyən bütün şəxlər | SOCAR AQŞ-nin icmaların inkişafı təşəbbüsləri |
| Standartlar | • GRİ 403 Əməyin Mühafizəsi və Təhlükəsizliyi (OHS) standartı<br>• İADC-nin sağlamlıq və təhlükəsizlik üzrə hesabat prinsipləri<br>• Yerli qanunvericilik tələbləri | GRİ Standartlarının 400 seriyası |
| Məlumatların əhatə dairəsi | Sahə səviyyəsində toplanmış və bundan sonra şirkət səviyyəsində birləşdirilmiş məlumatlar | Sosial xərclər |
| Metodologiya | Əlavə Hadisə Hesabatı (ƏHH) | GRİ Standartları |
| Məlumatların mənbəyi | Hadisələrin araşdırılması hesabatlarına əsaslanan daxili hesabat sistemi | Daxili hesabat sistemləri |

# İqtisadi göstəricilər

**Cədvəl 5. İqtisadi göstəricilər üzrə hesabat metodologiyası**

| | |
|---|---|
| Müəssisənin əhatə dairəsi | SOCAR AQŞ Qrupunun (bütün törəmə müəssisələri daxil olmaqla) bütün coğrafi məkanlarda bütün əməliyyatları |
| Standartlar | • Beynəlxalq Maliyyə Hesabatı Standartları (BMHS)<br>• Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) Konseptual çərçivə |
| Məlumatların əhatə dairəsi | Bu hesabata daxil olan əsas faktlar və rəqəmlər maliyyə hesabatındakı məlumatlara uyğundur |
| Metodologiya | Beynəlxalq Maliyyə Hesabatı Standartları və Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası |
| Məlumatların mənbəyi | • Daxili hesabat sistemi<br>• Xarici maliyyə auditləri |

# Əhəmiyyətlilik təhlili

Davamlı inkişaf haqqında hesabat sahəsindəki səylərimizi əks etdirmək üçün biz maraqlı tərəflərimizlə müntəzəm əlaqələr saxlayırıq, həmçinin əhəmiyyətli mövzularımızın maraqlı tərəflərimiz üçün vacib və prioritet məsələlərə uyğunluğunu təmin etmək məqsədilə kütləvi informasiya vasitələrində iştirakımızı izləyirik. Bu il maraqlı tərəflərin fikirlərindən və yenilənmiş GRİ standartlarından xəbərdar olmaq üçün əhəmiyyətlilik qiymətləndirməmizi yenidən nəzərdən keçirmək qərarına gəldik.

Bu hesabat çərçivəsində biz iqtisadi, ekoloji və sosial qruplara görə təsnif etdiyimiz 23 əhəmiyyətli mövzu müəyyənləşdirdik. Hər bir əhəmiyyətli mövzu müvafiq məlumatın açıqlanması üçün müvafiq bölmədə qeyd olunur. Əhəmiyyətli mövzuların siyahısı və əhəmiyyətliliyin qiymətləndirilməsi prosesi üçün **Şəkil 1 və 2-ə** baxın.

Şəkil 1. SOCAR AQŞ-nin əhəmiyyətlilik qiymətləndirməsi

## 1 ƏHƏMİYYƏTLİ ASPEKTLƏR

- Müştəri məmnuniyyəti
- İnsan hüquqları
- İşçi əlaqələri
- Tədarükçülərin qiymətləndirilməsi
- Yerli icmalar
- Tələblərə uyğunluq
- İnnovativ tədqiqatlar
- Ekoloji tələblərə uyğunluq

## 2 QİYMƏTLƏNDİRMƏ

### EKOLOJİ

SOCAR AQŞ-də biz ətraf mühitə minimum təsir göstərən sürətli qazma xidmətlərinin göstərilməsi üçün əməliyyatların bütün mərhələlərində ən yüksək standartlara uyğun olaraq ətraf mühitin təhlükəsizliyinin və mühafizəsinin təmin edilməsinə çalışırıq.

### SOSİAL

Biz davamlılığın üstünlüklərini – sosial mülahizələri onların sahibkarlıq fəaliyyətinin qərarvermə proseslərinə tətbiq etməyə çalışırıq. Fakt budur ki, hər bir işçi bu inteqrasiya prosesində əhəmiyyətli rol oynayır. SOCAR AQŞ əməkdaşların davamlılıq haqqında məlumatlı olmasını təmin edir və bu istiqamətdə təlimlər keçirir.

### İDARƏETMƏ

SOCAR AQŞ qəti şəkildə əmindir ki, liderlik şirkətin uzunmüddətli məqsədlərinə, gələcəyə baxışına nail olmaq üçün vacibdir. Bu səbəbdən, onların korporativ idarəçiliyi uğurlu rəhbərliyin təmin edilməsi üçün bir sıra rəhbər prinsipləri, qaydaları və prosesləri özündə birləşdirir.

## 3 NƏTİCƏ

### İdarəetmə

- Yerli məşğulluq
- Tender prosesi
- İqtisadi səmərəlilik
- İş yerlərinin yaradılması və qorunması

### Ekoloji

- Biomüxtəliflik və ekosistem
- İqlim dəyişikliyi
- Suyun idarə edilməsi
- Tullantıların idarə edilməsi
- Enerjidən istifadə
- Əhəmiyyətli dağılmalar
- Araşdırma və inkişaf
- Əməliyyatların səmərəliliyi
- Təchizat zəncirinin davamlılığı

### Sosial

- Böhran vəziyyətlərinin idarə edilməsi və fövqəladə hallara hazırlıq
- Liderlik, müxtəliflik və bərabər imkanlar
- Yerli icmalara təsir
- İnsan hüquqları
- İşçilərin işə cəlb edilməsi
- Təchizatçıların cəlb edilməsi
- Risklərin idarə edilməsi
- Təlim və inkişaf
- Əməyin mühafizəsi və təhlükəsizliyin idarə edilməsi
- Korporativ idarəetmə, şəffaflıq və uyğunluq

Şəkil 2. SOCAR AQŞ-nin Əhəmiyyətlilik matrisi




**Əhəmiyyətli mövzular**

1. Yerli məşğulluq
2. Tender prosesi
3. İqtisadi səmərəlilik
4. İş yerlərinin yaradılması və saxlanılması

5. Böhran vəziyyətlərinin idarə edilməsi və fövqəladə hallara hazırlıq
6. Liderlik, müxtəliflik və bərabər imkanlar
7. İnsan hüquqları
8. Uyğunluq və korporativ idarəetmə
9. Əməyin mühafizəsi və təhlükəsizliyin idarə edilməsi
10. Təlim və inkişaf
11. Təchizatçıların cəlb edilməsi
12. Yerli icmalara təsir
13. İşçilərin cəlb edilməsi
14. Risklərin idarə edilməsi

15. Biomüxtəliflik və ekosistem
16. Tullantıların idarə edilməsi
17. Əhəmiyyətli dağılmalar
18. İqlim dəyişikliyi və İSX emissiyaları
19. Tədqiqat və inkişaf
20. Suyun İdarə edilməsi
21. Təchizat zəncirinin davamlılığı
22. Enerjidən istifadə
23. Əməliyyatların səmərəliliyi



# SOCAR AQŞ haqqında

## Biz kimik

- Məhdud Məsuliyyətli Cəmiyyət
- 2007-ci ildə yaranmışdır
- Neft və qaz quyularının qazılması;
  Sənayeyə xas təchizat zəncirinin idarə edilməsi;
  Anbarın idarə edilməsi.
- Dünyanın beş ölkəsində həyata keçirilən layihələr
- Kompleks qazma və quyuların profilaktik təmirinin idarə olunması

## SOCAR AQŞ-NİN AZƏRBAYCANDAKI ƏMƏLİYYATLARI

### Bulla Dəniz

Azərbaycanda Bulla Dəniz yatağında 18 ¼ düym ölçülü PDC bit və qazma/quyu lüləsinin genişləndirilməsi əməliyyatlarını (18 ¼x24) bir dövrədə tətbiq edən ilk şirkət.

### Günəşli

2021-ci ilin sonuna kimi “Günəşli”-də 66 quyu qazılıb.

### Ümid

Azərbaycanın ikinci ən böyük qaz yatağı. 2021-ci ildə dərinliyi 6270 metr olan 18 nömrəli quyuda qazma işləri apardıq.

### Qərbi Abşeron

Hesabat ilinə qədər biz QA-da 32 quyu qazmışıq. QA yatağında ilk çoxşaxəli quyunun uğurlu əməliyyatları.



# SOCAR AQŞ BÜTÜN DÜNYADA



## Ukrayna

2018-ci ildə biz quyuların qazılması və yataqların işlənməsinin təkmilləşdirilməsi üzrə məsləhət xidmətlərinin göstərilməsini uğurla həyata keçirdik. Birgə əməkdaşlığı daha da irəli aparmaq üçün SOCAR AQŞ və "Naftoqaz" arasında 2021-ci ildə quruda və dənizdə fəaliyyətin inkişafı məqsədi ilə memorandum imzalanmışdır.



## Bangladeş

2018-ci ildə biz Banqladeşdə milli neft şirkəti üçün istismara hazır quyunun qazma və sınaq işlərini uğurla həyata keçirdik.



## Türkiyə

SOCAR AQŞ Türkiyədə 2019-cu ildən fəaliyyət göstərir və Aksaray rayonunun Tuz Gölü bölgəsində 38 yeraltı qaz ehtiyyat quyularının qazma işlərini tamamlamışdır.



## Qazaxıstan

2020-ci ildə biz Qazaxıstanda maili neft quyusunun qazılmasına nəzarəti təmin etdik. İlk layihənin uğurundan sonra biz 2021-ci ildən iki neft quyusunun idarə olunmasını həyata keçirdik.

# Xidmətlərimiz

- Quyuların layihələndirilməsi və planlaşdırılması (mühəndislik)
- Quyu təmiri və müdaxilə işləri
- Neft, qaz və yeraltı ehtiyat quyularının qazılması (əməliyyatlar)
- Yüksək təzyiqli və yüksək temperaturlu quyuların qazılması
- Qoruyucu boruların quyuya endirilməsi xidmətləri
- Qazma qurğusunun təkmilləşdirilməsi, yenilənməsi, işə salınması və işinin dayandırılması
- Atqıya qarşı preventorun təmiri və sınaqdan keçirilməsi
- Maili və horizontal quyuların qazılması
- Adi tamamlama və qumun təmizlənməsi ilə tamamlama
- Çoxşaxəli quyuların qazılması və tamamlanması

# Nailiyyətlərimiz

Büdcə daxilində və vaxtında **100-dən** çox yüksək məhsuldar quyu qazmışıq

Azərbaycanda Cənubi Xəzər dənizi hövzəsində çoxşaxəli quyunun qazma işlərini həyata keçirən **1-ci şirkət**

Azərbaycanda APİ Spec Q2 Keyfiyyətin İdarə edilməsi Sisteminə uyğun olaraq sertifikatlaşdırılmış və fəaliyyət göstərən **1-ci kompleks** qazma və quyu xidmətləri şirkəti

Xəzər dənizində ilk dəfə olaraq tam avtomat-laşdırılmış hidravlik kiberqazma qurğusunu tətbiq edən **1-ci şirkət**

# Sertifikatlarımız

API Spec Q2 Registered

ISO 9001 SGS

ISO 45001 SGS

ISO 14001 SGS

IADC CAA

# Mükafatlarımız

**Caspian Business Awards**
İlin qazma şirkəti, 2016

**Caspian Business Awards**
İlin şirkəti (Qazma şirkəti), 2013

**Caspian Business Awards**
İlin şirkəti (Qazma şirkəti), 2011

**BP**
İlin şirkəti
Müasir texnologiyanın uğurla həyata keçirilməsinə görə, 2015

**Caspian Business Awards**
İlin şirkəti (Qazma şirkəti), 2012

**Caspian Business Awards**
İlin şirkəti
Qabaqcıl qazma texnologiyalarının və yeni idarəetmə üsullarının tətbiqinə görə, 2010

# Missiya, gələcəyə baxış və dəyərlər

### GƏLƏCƏYƏ BAX

Bizim gələcəyə baxışımız müasir beynəlxalq şirkət olaraq, enerji sahəsində kompleks və səmərəli həllər təqdim etməklə, maraqlı tərəflərimizə maksimum dəyər qazandırmaqdır.

Şirkət olaraq mövqeyimizin bizim və maraqlı tərəflərimizin inandıqlarını və səy göstərdiklərini əks etdirməsi üçün 2021-ci ildə şirkətimizin gələcəyə baxışını, missiyasını və dəyərlərini yenidən nəzərdən keçirdik.

### MİSSİYA

Xəzər regionunda davamlı və sənayedə aparıcı qazma xidmətləri göstərmək, beynəlxalq bazarda biznesi genişləndirmək.

Bu fəaliyyət bizə əməliyyat və qərarlarımızın dəyişən sənaye və istehlakçı tələblərinə tam uyğunluğunu təmin etməyə yardımçı olacaq.

# Dəyərlər

### TƏHLÜKƏSİZLİK

Təhlükəsizlik bizim təşkilati mədəniyyətimizin əsasını təşkil edir və biz işimizi ən yüksək təhlükəsizlik standartlarına əsasən icra edirik.

### İNSAN YÖNÜMLÜ FƏALİYYƏT

Biz şirkətimizdəki hər bir şəxsə dəyər verir və hörmət edirik. Məqsədimiz sağlam mühit yaratmaq və bir komanda kimi işləməkdir.

### DÜRÜSTLÜK

Biz bütün tərəfdaşlarımıza qarşı dürüstük və güclü mənəvi prinsiplərimiz var. Biz bütün fəaliyyətlərimizdə ən yüksək etik standartlara əməl edirik.

### MÜKƏMMƏLLİK

Biz bütün əməliyyatlarımızda mükəmməl olmağa çalışırıq və işlərin yüksək səviyyədə icrasını, davamlı inkişafını qarşımıza məqsəd qoyuruq.

### İNNOVASİYA

Müştərilərimiz üçün təhlükəsiz, rəqabətədavamlı və etibarlı həllər təqdim etmək məqsədilə müasir texnologiya və çevik iş üsulları ilə müasirləşməyə davamlı şəkildə investisiya yatırırıq.

# Maraqlı tərəflərin cəlb olunması

Biz böyüməyə çalışsaq da, heç kimin geridə qalmadığı inkişafa nail olacağımıza inanırıq. Buna görə də, SOCAR AQŞ tərəfindən müəyyən edilmiş maraqlı tərəflərin bütün qrupları ilə etibarlı və dəqiq kommunikasiya kanallarının olmasını təmin etmək bizim üçün son dərəcə vacibdir. Maraqlı tərəflərlə ünsiyyətimizdə prioritetimiz ölkənin iqtisadi yüksəlişində rol oynayaraq cəmiyyətin inkişafına və ətraf mühitin qorunmasına töhfə vermək üçün göstərdiyimiz səylər barədə məlumatlandırmaqdır. Eyni zamanda, kommunikasiya kanallarımız vasitəsilə biz maraqlı tərəflərin fikirlərinin və narahatlıqlarının vaxtında və hərtərəfli şəkildə nəzərə alınmasını təmin etmək üçün onları hər zaman dinləməyə çalışırıq.

Məlumatın daxili maraqlı tərəflərə ötürülməsi əsasən poçt vasitəsilə həyata keçirilir. Bundan əlavə, şirkət aktual iclaslar da keçirir. SOCAR AQŞ 2022-ci ildə əməkdaşlar arasında daxili kommunikasiyanın davam etdirilməsi, məlumatların saxlanması və işçilərin cəlb edilməsi üçün istifadə olunan Intranet sistemini, eləcə də "Yammer" platformasını hazırlamağı planlaşdırır.

SOCAR AQŞ maraqlı tərəflərin cəlb edilməsinə üstünlük verir və Facebook, LinkedIn, Twitter, YouTube, korporativ broşürlər və öz rəsmi internet saytı vasitəsilə xarici kommunikasiyanı həyata keçirir.

**Şəkil 3-də** maraqlı tərəflərimizin qruplarını və onlarla mütəmadi qarşılıqlı əlaqəni saxlamaq üçün istifadə etdiyimiz vasitələri təsvir edirik.

**Şəkil 3. Maraqlı tərəflər qrupları və cəlb olunma üsulları**

### ƏMƏKDAŞLAR
- Təlimlər
- İclaslar (təkbətək, şirkətdaxili)
- Cəlb olunma sorğuları
- Davamlı İnkişaf haqqında İllik Hesabat

### TƏCHİZATÇILAR
- DWOP tədbirləri
- Gündəlik, aylıq və iş sonrası hesabatlar
- Planlaşdırma iclasları
- Sahəyə səfərlər
- Davamlı İnkişaf haqqında İllik Hesabat

### DÖVLƏT QURUMLARI
- Daimi hesabat
- İctimai görüşlər
- Nazirlik tərəfindən aparılan yoxlamalar və auditlər
- Davamlı İnkişaf haqqında İllik Hesabat

### TƏRƏFDAŞLAR
- Konsultasiyalar
- Təlimlər
- Seminarlar
- Davamlı İnkişaf haqqında İllik Hesabat

### SƏHMDARLAR
- Səhmdarların iclasları
- İllik Maliyyə Hesabatları
- Davamlı İnkişaf haqqında İllik Hesabat

### YERLİ İCMALAR VƏ QHT-lər
- İcma inkişaf proqramları
- Xeyriyyə tədbirləri
- İctimai tədbir sponsorluğu
- Sosial media
- Davamlı İnkişaf haqqında İllik Hesabat

### MÜŞTƏRİLƏR
- DWOP tədbirləri
- İclaslar
- Gündəlik, aylıq, yarımillik və illik hesabatlar
- Davamlı İnkişaf haqqında İllik Hesabat

### AKADEMİYA
- Təcrübə proqramları
- Təqaüd proqramları
- SPE və İADC Tələbə bölmələri
- Aparıcı universitetlərlə birgə təşəbbüslər
- Davamlı İnkişaf haqqında İllik Hesabat

### MEDİA
- Press relizlər
- Müsahibələr və media konfransları
- Davamlı İnkişaf haqqında İllik Hesabat

# SOCAR AQŞ-də davamlı inkişaf

## Davamlı inkişaf strategiyası və yanaşma

Məsul xidmət təminatçısı kimi, yüksək səviyyəli qərarların qəbul edilməsindən fərdi davranışa qədər davamlı inkişaf mülahizələrini biznesimizin hər bir aspektinə tətbiq etməyə çalışırıq. Bu yanaşma əməkdaşlarımızı davamlı inkişaf sahəsində gündəliyimizin mərkəzində saxlamağa imkan verir, çünki biz anlayırıq ki, fərdi səylər olmadan davamlı inkişaf sahəsində məqsədlərimizə heç zaman nail ola bilmərik. Buna görə də biz, davamlı inkişaf səylərimizin SOCAR AQŞ-nin bütün əməkdaş və podratçılarının diqqətinə çatdırılması üçün daxili maarifləndirmə kampaniyalarına və təlimlərə xüsusi diqqət yetiririk. Belə təşəbbüslərdən biri bütünlükdə şirkətin davamlı inkişaf məsələləri üzrə kompleks tədris materialları və resurslarını təmin edən BMT-nin Qlobal Saziş üzrə Təlim Akademiyasına daxil olmasıdır.

Davamlı inkişaf strategiyamız hər bir peşəkar inkişaf səviyyəsinə malik əməkdaşları cəlb edə bilən geniş və perspektivli yanaşmanı ehtiva edir. Şirkət daxilində davamlı inkişafın yuxarıdan aşağıya inteqrasiyasını təmin etmək üçün biz hər il strategiya seminarları keçiririk və bu seminarlarda bütün yüksək vəzifəli rəhbərlər, menecerlər və ixtisaslaşmış əməkdaşlar iştirak edirlər. Bu seminarlar həm şirkətin daxilində, həm də xaricində üçlü meyarın (TBL) təhlil edilməsi, şirkətimizin missiyasının, gələcəyə baxışının və dəyərlərinin yenidən nəzərdən keçirilməsi və maraqlı tərəflərin gözləntilərinə, dünyanın qabaqcıl təcrübələrinə, habelə sənaye tendensiyalarına uyğun şəkildə yenilənməsi üçün nəzərdə tutulmuşdur. Bu seminarlar həmçinin bizə növbəti illər üçün əsas prioritet sahələrimizi və strateji hədəflərimizi yenidən planlamaq imkanı verir.

İnsan Kapitalı departamentinin təşkil etdiyi təlimlər vasitəsilə yeni müəyyən edilmiş missiya, gələcəyə baxış, dəyərlər və məqsədlər əməkdaşların diqqətinə çatdırılır. Bu yeni prioritetlər daha sonra şirkətin yeni prioritet sahələrinə, strateji məqsədlərinə və gələcəyə baxışına uyğun olaraq öz məqsədlərini müəyyənləşdirən hər bir departamentə bildirilir. Daha sonra hər bir əməkdaş öz fərdi hədəflərini müəyyənləşdirmək imkanı əldə edir ki, bu da onun komandanın və beləliklə, bütövlükdə şirkətin ümumi işinə töhfə vermə qabiliyyətini artırır. Davamlı inkişaf təşəbbüsümüzün dəqiq idarə olunmasını təmin etmək üçün biz **Şəkil 4-də** sadalanan bir sıra idarəetmə vasitələri hazırlamışıq.

## DİM-lərə uyğunlaşma

Davamlı inkişafa sadiq qalaraq, davamlı iqtisadi artıma nail olmaq üçün BMT-nin DİM-lərini qəbul etməyin və onları strateji qərar qəbuletmə prosesinə tətbiq etməyin vacib olduğunu başa düşürük. Beləliklə, biz DİM-ləri reallaşdırmaq məqsədilə qlobal birliyə qoşulmaq üçün addımlar atırıq. Biz, həm **DİM-lər haqqında Hesabat üzrə Fəaliyyət Platforması** , həm də **Qlobal Təchizat Zəncirlərində Layiqli İş üzrə Fəaliyyət Platformasına** qoşulmuşuq. Eyni zamanda, biz 2019-cu ildən **GRİ İcmasının** üzvüyük. Bundan əlavə, 2019-cu ildə biz BMT-nin Qlobal Saziş üzrə aparıcı şirkəti seçildik. **Şəkil 5-də** biz hər bir məqsədə nail olmaqda töhfələrin vacibliyini anladığımız üçün şirkətimiz tərəfindən prioritetləşdirilən DİM-ləri təsvir edirik

**Şəkil 4. Davamlılığın idarə edilməsi vasitələri**



**Şəkil 5. DİM-ə uyğunluğumuz**




Bizim 5 ulduzlu Təhlükəsizlik Proqramımız daxili Əməyin Mühafizəsi və Təhlükəsizliyi qaydalarına, habelə yerli qanunlara və beynəlxalq standartlara riayət olunmasını təşviq edir və onlara nəzarət edir.




Biz, təqaüdlər təklif etməklə, təhsil fəaliyyətini təşkil etməklə və aparıcı universitetlərlə tərəfdaşlıq etməklə aztəminatlı ailələrdən olan tələbələr üçün STEM təhsili almaq imkanlarını artırmağa çalışırıq. Eyni zamanda Təlimin İdarə Edilməsi Sistemimiz (TİES) daxili maraqlı tərəflərimizin inkişafını və karyera yüksəlişini təşviq etmək və asanlaşdırmaq üçün hazırlanmışdır.




Məsuliyyətli işəgötürən kimi biz, kişi və qadınlara iş yerində bərabər imkanlar verilməsinə çalışırıq. Məmnunluq sorğusunun nəticələrinə əsasən, qadınların cəlb olunmasının artırılması istiqamətində 2022-ci ildə həyata keçiriləcək tədbirlər müəyyənləşdirilib.




Yerli icmaya iş imkanları təqdim etməklə, ilk növbədə yerli təchizatçılarla işləmək, tələbələrə və yeni məzunlara təcrübə proqramları təklif etməklə biz, ölkədə davamlı iqtisadi artıma töhfə verməyə çalışırıq.




Biz, həmişə neft-qaz sahəsindəki problemlərin innovativ həll yollarını təşviq etmək üçün fürsətlər axtarırıq. Buna görə də, biz SMART və innovativ texnologiyalara sərmayə qoymağa davam edirik.




Biz hesab edirik ki, məsuliyyətli bazar iştirakçısı kimi cəmiyyətin davamlı inkişafında cəmiyyət qarşısında müəyyən məsuliyyət daşıyırıq, buna görə də cəmiyyətin inkişafına və təhsil imkanlarına yönəlmiş layihə və proqramları həyata keçirməyə, eləcə də müxtəlif xeyriyyə təşkilatlarına töhfələr verməyə davam edirik. Biz, neft-qaz sahəsində əsas iştirakçı kimi əhalinin enerji ilə təmin olunmasına da öz töhfəmizi veririk.




Əməliyyatlarımız nəticəsində yaranan tullantılar təkrar emal müəssisələrinə ötürülür və biz, bütün tullantıların yerli qanunvericiliyə və beynəlxalq standartlara uyğun idarə olunmasını təmin etmək üçün onlara nəzarət edirik.




Ətraf mühitin mühafizəsi, əməkdaşlarımızın və podratçılarımızın sağlamlığı və təhlükəsizliyinə yönəlmiş tədbirlərimiz əməliyyatlarımızın iqlim dəyişikliyinə təsirini minimuma endirməyə kömək edir.




Əməliyyatlarımızın suyun altındakı həyata təsir etmək potensialına malik olduğunu qəbul etdiyimiz üçün əhəmiyyətli dağılmalar kimi potensial təhlükələri minimuma endirmək məqsədilə ən son texnologiyadan istifadəni təmin edirik. Biz, həmçinin əməliyyatlarımızı tənzimləmək və potensial risklərə vaxtında və hərtərəfli cavab vermək üçün ciddi çərçivələr hazırlamışıq.




Milli dəyərlərə dəstək olmaq səylərimizi davam etdirərək cəmiyyətimizdə sülh və ədalətin qorunmasına öz töhfəmizi veririk.


SOCAR AQS

# Davamlı təchizat zəncirinin idarə edilməsi

Nüfuzumuzu qorumaq və əməliyyatlarımızı daha davamlı olmaq istiqamətində genişləndirmək üçün biz vaxtımızı çalışdığımız insanları tanımağa həsr edirik. Beləliklə, biz yalnız dəyərlərimizi və etik biznes davranışı ilə bağlı öhdəliyimizi bölüşən təchizatçılarla işləyirik.

SOCAR AQŞ təchizatçıların yerli qanunvericiliyə, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə, eləcə də ISO 9001:2015, ISO 14001:2015, ISO 45001:2018, API Q2 Spesifikasiyaları kimi beynəlxalq standartlara uyğun olub-olmadığını müəyyən etmək üçün onlarla davamlı yoxlamalar aparmaq hüququna malikdir.

**Şəkil 6. Kateqoriya üzrə təchizatçıların sayı, 2019-2021**




2021-ci ildə SOCAR AQŞ **taktiki satınalmalardan** strateji satınalmalara keçidi nəzərdə tutan yeni təchizat zənciri strategiyasını həyata keçirmişdir. Strateji satınalma yanaşmasının məqsədi 2021-ci il üçün hədəflərimizdən birini yerinə yetirməkdir ki, bu da müqavilənin idarə edilməsi və P2P prosesi kimi mexaniki tapşırıqların maksimum dərəcədə **avtomatlaşdırılması** idi. Hesab edirik ki, bu keçid şəffaflığı xeyli artıracaq və təchizat zəncirimiz çərçivəsində uyğunluğu dəqiq ölçməyə imkan verəcək. Biz **elektron satınalma sistemi** vasitəsilə satınalma proseslərinin rəqəmsallaşdırılmasını da həyata keçirmişik. Bu sistem satınalma prosesinin dəqiqliyi, nəzarəti və məhsuldarlığına görə sərfəlidir. Sistem eyni vaxtda bir neçə vəzifəni yerinə yetirməklə yanaşı, əməliyyatları daha təhlükəsiz icra etməyə imkan verir.

Bundan əlavə, strateji satınalmalar Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, yerli təchizatçıların prioritetləşdirilməsinə dəstək yolu ilə həyata keçirilir. Bu, milli sənaye təchizatçılarının bacarıq və səriştələrinin artırılmasına və daha səmərəli biznes mühitin yaradılmasına səbəb olur. Satınalmalara strateji yanaşmanın tətbiqi şirkəti həm yerli, həm də beynəlxalq bazarlarda şəffaflığın artırılmasına və etimadın möhkəmləndirilməsinə təkan verdi. Bu cür yanaşma nəticəsində SOCAR AQŞ 2021-ci ildə yerli təchizatçıların payını **62%-dən 79%-ə** yüksəldib.

Hazırda açıq və qapalı olan bütün tenderlərimiz təchizatçılarımızla eyni vaxtda kommunikasiya kanallarından biri kimi istifadə etdiyimiz, ictimaiyyətə açıq yeni təchizat zəncirini idarəetmə sistemi **Promena** vasitəsilə həyata keçirilir. Bu elektron platformanın bəzi xüsusiyyətlərinə, təkliflərə yalnız son tarixdən sonra baxmaq daxildir ki, bu da təchizatçılar arasındakı rəqabətdə şəffaflığın, eləcə də bazarda etimadın artmasına səbəb olur.

SOCAR AQŞ proseslərin sadələşdirilməsində tender proseduru ilə bilavasitə iştirak edən işçilər üçün əhəmiyyətli rol oynayan təchizatçıların yoxlanılması da daxil olmaqla, prosedur siyahısını müəyyən etmişdir. Eyni zamanda, bu prosedurlar təchizatçıların bizim uyğunluq standartlarımıza, həmçinin şirkətin strategiya və missiyasına uyğunluğunu təmin edir. Təchizatçıların qiymətləndirilməsi prosesi çərçivəsində **(Şəkil 7)** təchizatçılar korrupsiya və rüşvətxorluğa qarşı mübarizə prosedurları və SOCAR AQŞ-nin Davranış Qaydalarına və Biznes Etikasına uyğunluq da daxil olmaqla bir sıra göstəricilər üzrə qiymətləndirilir.

**Şəkil 7. Təchizatçıların qiymətləndirilməsi prosesi**




Müasir köləlik, insan alveri, uşaq əməyi və insan hüquqları ilə bağlı təchizat zəncirimizdə insan hüquqları üzrə mümkün pozuntuların qarşısının alınması səylərində əhəmiyyətli rol oynadığımızın fərqindəyik. Buna görə də biz. kompleks yoxlama prosesi çərçivəsində aparılan xarici sorğular və bazar araşdırmaları ilə paralel olaraq əlavə nəzarət tədbirləri həyata keçiririk, eyni zamanda yeni əlavə edilmiş təchizatçılardan təchizatçının uyğunluğuna əlavə nəzarəti təmin edən sorğu vərəqəsini doldurmaq tələb olunur. Yekun olaraq qeyd edək ki, biz həm işçilərin, həm də təchizatçıların davranışlarının yerli qanunvericiliyə və Davranış Qaydaları və Biznes Etikasına uyğun olaraq yuxarıda qeyd olunan mümkün məsələlər üzrə beynəlxalq standartlara uyğunluğunu yoxlayırıq.



# Korporativ idarəetmə

## İdarəetmə strukturu

Təşkilatımızın necə fəaliyyət göstərdiyini və bütün maraqlı tərəflərimizin maraqlarına necə cavab verdiyini tənzimləyən bir sıra təlimat və prosedurları müəyyən edən Korporativ İdarəetmə şirkətimizin maliyyə göstəricilərində mühüm rol oynayır. Beləliklə, SOCAR AQŞ Direktorlar şurasından, komitələrdən və ali rəhbərlikdən ibarət idarəetmə strukturunu idarə edir və onlar şirkətin davamlı inkişafını dəstəkləmək istəyən bacarıqlı və yüksək ixtisaslı mütəxəssislərdir. SOCAR AQŞ-nin ana şirkəti Nobel Energy, digər səhmdarları isə SOCAR və Abşeron Qazma MMC-dir.

**Şəkil 8. SOCAR AQŞ-nin idarəetmə strukturu**

Səhmdarların Ümumi Yığıncağı

Direktorlar Şurası

Nobel Energy (ana şirkət)

SOCAR AQŞ-nin Baş direktoru

Yüksək və orta səviyyə rəhbərlik

Biz, yüksək səviyyəli qərar qəbulumuzda davamlılığın prioritet vəzifə olaraq qalması üçün səylərimizi davam etdiririk. Direktorlar Şurasının rəhbərliyi ilə biz maliyyə dayanıqlılığını artırmağa, riskləri azaltmağa və ən yüksək standartlara sadiq qalmağa çalışırıq. Buna görə də biz daim davamlılıq məsələlərini, gələcək layihələri, həmçinin korporativ məqsədləri əhatə etməsi üçün Direktorlar Şurasının müntəzəm iclaslarının gündəliyinə nəzarət edirik. Risklərin idarə edilməsi, büdcə və böhran vəziyyətlərinin idarə edilməsi, həmçinin Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit SOCAR AQŞ-də mövcud olan üç komitədir. Komitələr şirkət üçün davamlılıq məsələləri baxımından mühüm rol oynayır. Onlar öz iclaslarında birinci növbədə davamlılıq məsələlərinə diqqət yetirir, bu məsələlərin həlli üçün yeni strategiyalar qəbul edir və onların gedişatı və hər hansı əlaqədar məsələlər barədə Şuraya məlumat verirlər. Əlavə məlumat üçün **Şəkil 9-a** baxın.

**Şəkil 9. SOCAR AQŞ-nin komitələri**

**Risklərin idarə edilməsi**

Risklərin İdarə Edilməsi üzrə Komitəmiz SOCAR AQŞ-nin risklərinə, o cümlədən strateji, əməliyyat və maliyyə risklərinə nəzarət və monitorinqi konsolidasiya əsasında həyata keçirir.

**Böhran vəziyyətlərinin idarə edilməsi**

Böhran Vəziyyətlərinin İdarə edilməsi üzrə Komitəmiz bütün mümkün fövqəladə halları nəzərə alaraq, şirkətin biznesin davamlılığını təmin etmək planının mövcudluğunu təmin edir.

**SƏTƏM**

Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühit üzrə Komitəmiz təhlükəsiz işə və işçilər ilə rəhbərlik arasında sağlam təhlükəsizlik mədəniyyətinin qorunmasına sadiqliyi nümayiş etdirir.

## Etika, uyğunluq və dürüstlük

Biz, məsuliyyətli xidmət təminatçısı olaraq, bir şirkət kimi ən yüksək peşəkar və fərdi davranış standartlarına uyğunluğumuzu təmin etməyə çalışırıq. Buna görə də fəaliyyət göstərdiyimiz illər ərzində biz, öz əməliyyatlarımızda mükəmməliyə nail olmaq üçün davranışlarımızı tənzimləyən bir sıra strategiyalar və daxili prosedurlar hazırlamışıq.

Beləliklə, biz bütün əməliyyatlarımızı etik davranış tələblərinə uyğun və dürüst şəkildə yerinə yetirdiyimizə əmin olmaq üçün **Davranış Qaydaları** **(Şəkil 10)** və **Biznes Etikasını** hazırlamışıq. Bizim üçün etik davranış korporativ mədəniyyətimizin əsas dəyərlərinin təməlini təşkil edir. Qaydalar təkcə əməkdaşlarımıza deyil, həm də əməkdaşlıq etdiyimiz digər şəxslərə, o cümlədən satıcı və təchizatçılarımıza, hökumət tərəfdaşlarımıza, işlədiyimiz icmalara və digər maraqlı tərəflərə də şamil edilir. Bu idarəetmə çərçivəsi **Davranış Qaydalarına** və **Biznes Etikasına** uyğunsuzluğun qarşısını alan etik və məsuliyyətli iş davranışını müəyyən edir.

Davranış Qaydalarının pozulması barədə şirkət rəhbərliyinə məlumat vermək və bu prosesə nəzarət etmək tövsiyə olunur. SOCAR AQŞ-də bu məsələ ilə bağlı Qəbul və Təsdiq formasından istifadə etməklə, aparıcı rəhbərlər tərəfindən siyasətin illik təsdiqi və siyasət barədə məlumatlandırma təmin edilməlidir. Rəhbərlərin həddən artıq öhdəliyi var, çünki onlar Etika və Uyğunluq Qrupunun təqdim etdiyi Qəbul və Təsdiq formasının bütün komanda üzvləri tərəfindən imzalanmasını və bununla Davranış Qaydalarını başa düşdüklərini təsdiqləmələrini təmin etməlidir.

**Şəkil 10. Davranış Qaydaları ilə müəyyən edilmiş biznes təcrübələri**

| Davranış qaydaları | |
|---|---|
| 1 Sağlamlıq, əməyin təhükəsizliyi, ətraf mühitin mühafizəsi | 7 Maraqların toqquşması |
| 2 Prosedurların sadələşdirilməsi üzrə ödənişlər | 8 Dələduzluq, məlumatlar və aktivlərin qorunması |
| 3 Vəzifəli şəxslərlə münasibətlər | 9 Daxili audit |
| 4 Siyasi fəaliyyət | 10 Müştəri və üçüncü tərəf münasibətləri |
| 5 İcma üstünlükləri | 11 Yerli qanunvericiliyə uyğunluq |
| 6 Hədiyyələr və qonaqpərvərlik siyasəti | |

# Şəffaflıq və daxili idarəetmə sistemləri

Maraqlı tərəf-yönümlülük və dürüstlük SOCAR AQŞ-nin əsas dəyərlərindən ikisi olduğundan, biz həm işçilərdən, həm müştərilərdən, həm də üçüncü tərəf qurumlarından uyğun davranış və qanunvericiliyin tələblərinə əməl etməsini gözləyirik. **Rüşvətxorluğa Qarşı Mübarizə Siyasətinə** əsasən, SOCAR AQŞ əməkdaşlarını biznes təcrübələrini dürüst, şəffaf və qanunauyğun şəkildə aparmağa təşviq edir. Nüfuzumuzu qorumaq və hər hansı ağır nəticələrin qarşısını almaq üçün şirkət siyasət şərtlərini təhlükə altına salan hər hansı potensial halların qarşısını almağa çalışır. SOCAR AQŞ əməkdaşların Problemlərin bildirilməsi Formasından və ya ana şirkətimiz tərəfindən yaradılmış qaynar xətdən istifadə etməklə arzuolunmaz nəticələrə və ya Davranış Qaydalarının pozulmasına səbəb ola biləcək hər hansı məsələni qaldırmaqdan çəkinmədiyi “Danış” mədəniyyəti **(Şəkil 11)** qurmuşdur. Biz, ISO 370001 standartına uyğun hazırlanmış siyasətimizə tam uyğunluğu qorumaqla rüşvət, korrupsiya və sadələşdirilmiş ödəniş hallarının aradan qaldırılmasını təmin etmək üçün daim proses və əməliyyatlarımıza nəzarəti saxlayırıq.

**Şəkil 11. SOCAR AQŞ-də “Danış” mədəniyyəti vasitələri**

| Qaynar xətt | Problemlərin bildirilməsi forması | Təkbətək qarşılıqlı ünsiyyət |
|---|---|---|

Birinci növbədə davamlı təsirə və şəffaf biznes təcrübələrinə diqqət yetirərək Daxili Audit Sistemi əsasında daxili auditin illik qiymətləndirilməsini həyata keçiririk. Ümumiyyətlə, audit proqramları İdarəetmə Sistemləri Departamenti tərəfindən planlaşdırılan və yoxlanılan sahələrin əhəmiyyəti, onların tezliyi, həmçinin metod və vəzifələri, planlaşdırma və hesabat tələbləri nəzərə alınmaqla həyata keçirilir. Şirkətimizin daxili auditinin əsas məqsədi keyfiyyət və ətraf mühit idarəetməsinin, əməyin mühafizəsi və təhlükəsizlik texnikasının, habelə sənaye idarəetməsinin yerli qanunvericiliyin tələblərinə uyğunluğunu təmin etməkdir. Bundan əlavə, daxili audit funksiyamız **Şəkil 12-də** təsvir olunan beynəlxalq standartlara uyğun olaraq həyata keçirilir.

**Şəkil 12. Daxili audit funksiyasının beynəlxalq standartlara uyğunlaşdırılması**

SYSTEM CERTIFICATION ISO 9001 SGS | SYSTEM CERTIFICATION ISO 14001 SGS | SYSTEM CERTIFICATION ISO 45001 SGS | Q2 API Spec Q2 Registered

# Risklərin idarə edilməsi

Biz, məsuliyyətli bazar iştirakçısı olaraq başa düşürük ki, biznesdə potensial risklərin nəzərə alınması uğurun əsas əlamətlərindən biridir. Buna görə də Risklərin İdarə Edilməsi üzrə Komitəmiz şirkətin risklərin idarə edilməsi prosesində mühüm rol oynayır. Komitənin əsas məqsədi əməliyyat riskləri, maliyyə itkiləri və ya nüfuza zərər dəyməsi nəticəsində təşkilata ziyan verə biləcək mənfi nəticələrin qarşısının alınması məqsədilə risklərə nəzarəti və onların idarə olunmasını təmin etməkdən ibarətdir. Risklərin idarə edilməsi prosesimiz **(Şəkil 13)** ISO 31000/COSO ERM tələblərini rəhbər tutur. Biz, risklərin əhəmiyyətini və aktuallığını, onların yaranma ehtimalını nəzərə alaraq, qabaqlayıcı və cavab tədbirləri təyin etməklə risklərin balanslı şəkildə idarə edilməsinə çalışırıq.

Şəkil 13. SOCAR AQŞ-də risklərin idarə edilməsi prosesi

| | |
|---|---|
| **Mərhələ 1**<br>Risklərin müəyyənləşdirilməsi və təsnifatı | Struktur bölmələr hər bir bölmə üzrə müəyyənləşdirilmiş riskləri əks etdirən risk qeydlərini və hər bir risk üzrə nəzarət tədbirlərini hazırladıqdan sonra Risklərin İdarə Edilməsi departamenti risk qeydlərini nəzərdən keçirir və struktur bölmələrin rəhbərləri ilə birlikdə metodoloji cəhətdən dəyərləndirir. Daha sonra Risklərin İdarə edilməsi departamenti yenilənmiş risk qeydlərini təsdiq üçün Risklərin İdarə edilməsi üzrə Komitəyə göndərir. |
| **Mərhələ 2**<br>Risklərin qiymətləndirilməsi | Risklərin İdarə edilməsi departamenti struktur bölmələrlə birlikdə hər bir riski aşağıdakı kateqoriyalara görə qiymətləndirir:<br>• Hər bir riskin yaranma ehtimalı<br>• Hər bir riskin ehtimal olunan nəticəsi |
| **Mərhələ 3**<br>Prioritetləşdirmə | • Risklərin qiymətləndirilməsinin nəticələrinə əsasən, risklər təsir dərəcəsindən asılı olaraq aşağı, orta və yüksək olmaqla üç kateqoriyaya bölünür.<br>• Bu kateqoriyalar, riskləri prioritetləşdirmək üçün istifadə edilir və bu cür qiymətləndirmə və təsnifatın nəticələri Risk pasportlarında əks etdirilir. |
| **Mərhələ 4**<br>Hazırlıq və icraetmə | • Daha sonra risklərin müəyyən edilməsi, onların idarə olunması üçün tədbirlər və məsul şəxslər daxil olmaqla, hər bir riskə cavab olaraq tədbir planları hazırlanır. Tədbir planları təsdiq edilir və icra edilməsi üçün məsul şəxslərə göndərilir. |
| **Mərhələ 5**<br>Monitorinq | Risklərin idarə olunması prosesi Risk pasportlarında əks olunmuş tədbirlərin icra vəziyyətinin monitorinqi prosesini tənzimləyən təsdiqlənmiş monitorinq planını əhatə edir. Maliyyə, Hüquq, Əməliyyatlar və SƏTƏM departamentlərinin rəhbər işçilərindən ibarət Risklərin İdarə Edilməsi üzrə Komitə tərəfindən Risklərin İdarə Edilməsi departamentinin fəaliyyətinə rüblük olaraq nəzarət edilir. |






# SOCAR AQŞ-də innovasiya

## Xidmət keyfiyyəti və quyuların istismarı

Xidmətləri əhəmiyyətli dərəcədə texnoloji avadanlıqlara əsaslanan bir şirkət kimi başa düşürük ki, cihazlarımızın keyfiyyəti işçilərin təhlükəsizliyini, habelə ətraf mühitin mühafizəsini təmin etmək üçün ən yüksək standartlara cavab verməlidir. Müştərilərimizlə qurduğumuz şəffaf və etibarlı münasibətlər zaman keçdikcə biznes aparmaq yanaşmamızın dürüstlük əsasları üzərində qurulmuşdur. Bu yanaşma əməliyyatlarımızın bütün aspektlərinə inteqrasiya olunduğundan, biz **quyuların istismarı** sayəsində yüksək təhlükəsizlik səviyyəsinə çatdığımız üçün fəxr edirik.

Quyuların istismarı prosesimiz Amerika Neft İnstitutunun Q2 Spesifikasiyasının (API Spec Q2) və Beynəlxalq Qazma Podratçıları Assosiasiyasının Səriştələr üzrə Akkreditasiya (İADC SÜA) tələblərinə uyğun olan Xidmətin İcra Dövrü ilə birləşdirilib. Bundan əlavə, Kompleks İdarəetmə Sistemimiz (KİS) **(Şəkil 14 və 15)** ISO 9001:2015, ISO14001:2015, ISO45001:2018 daxil olmaqla beynəlxalq standartlara uyğun siyasət və prosedurlarımızı nəzərə alaraq xidmətlərimizin yüksək keyfiyyətini müəyyənləşdirmək məqsədi ilə hazırlanmışdır. SOCAR AQŞ-nin bütün əməkdaşları və podratçıları KİS ilə əhatə olunur.

**Şəkil 14. Kompleks İdarəetmə Sisteminin strukturu**

**Kompleks İdarəetmə Sistemi**

Keyfiyyətə Nəzarət

- Məhsul və xidmətlərin keyfiyyətinə diqqət yönəldilir.
- Bütün zəruri tələblərin SAP sistemində satınalma planına daxil edilməsini təmin edir.

Keyfiyyət Təminatı

- Proseslərin lazımi standartlara və sertifikatlara uyğunluğunu yoxlayaraq onların keyfiyyətini təmin edir.

**Şəkil 15. Xidmətin icra dövrü: Quyuların istismarının səkkiz mərhələsi**

- Müqavilənin nəzərdən keçirilməsi və təhlili
- Xidmətlərin icrası və planlaşdırılması
- Risklərin qiymətləndirilməsi və idarə edilməsi
- Xidmətin layihələndirilməsi
- Gözlənilməz vəziyyətlərin planlaşdırılması
- Satınalma və önəmli təchizat
- Xidmətin icrası
- Xidmət səmərəliliyinin yoxlanılması

# Texnologiya və innovasiya

Biz hesab edirik ki, neft və qaz sahəsində xidmət təminatçısı kimi uğurumuz innovasiyalara və dəyişikliklərə açıqlığımıza əsaslanır. Daim dəyişən və innovativ dünya iqtisadiyyatında biz qazma əməliyyatlarında texnoloji nailiyyətləri və rəqəmsallaşma variantlarını davamlı olaraq araşdırmaqla sənaye tendensiyalarının zirvəsində qalmağa çalışırıq. Buna baxmayaraq, biz innovativ texnologiyalara və yeni biznes modellərinə can atmağımızı iqtisadi inkişaf fürsətindən daha çox, həm də davamlı inkişaf sahəsində irəliləmək şansı kimi görürük. Əməliyyatlara Dəstək Xidmətləri Departamentimiz qüsurların vaxtında müəyyənləşdirilməsi və nasazlıqların əsas səbəblərinin müəyyən edilməsi yolu ilə texniki avadanlıqlarımızın işləmə qabiliyyətinin təmin edilməsinə görə məsuliyyəti öz üzərinə götürür. Bu tədqiqatlar bizə ümumi əməliyyatlarımızı yaxşılaşdırmaq üçün aşkar etdiyimiz problemlərin unikal həllini hazırlamağa imkan verir.

Texniki xidmət funksiyamızın qabaqcıl dünya təcrübəsinə və beynəlxalq standartlara uyğun olmasını təmin etmək üçün biz **Şəkil 16-da** təsvir olunan bir neçə beynəlxalq sistemi həyata keçirmişik.

**Şəkil 16. SOCAR AQŞ tərəfindən həyata keçirilmiş beynəlxalq texniki xidmət çərçivələri**

| | |
|---|---|
| Beynəlxalq Standartlar və Məhsul İstehsalı və Texniki Xidmət Təcrübələri (MİTXT) | Avadanlıqların texniki xidmətinin vəziyyətinin proqnozlaşdırılması və monitorinqi və onların istismarı ilə bağlı potensial risklərin proqnozlaşdırılması məqsədilə məlumatların toplanması haqqında texniki xidmət təlimatları. |
| TXKİS SAP proqramı bizə Profilaktik Texniki Xidmət və Yoxlama Test Proqramlarımızı izləməyə imkan verir (PTXYTP) | Texniki Xidmətin Kompüterləşdirilmiş İdarəetmə Sistemi (TXKİS) |

# Cəmiyyətə töhfəmiz

Müştərilərimizə yüksək keyfiyyətli və açıq ünsiyyətə daim diqqət yetirməklə xidmətlər təqdim etməyə davam etsək də, məsul xidmət təminatçısı kimi, təsirimizin müştəri münasibətlərindən daha geniş olduğuna inanırıq. İşə yanaşmamız xarici maraqlı tərəflərimizin, o cümlədən cəmiyyətimizin ehtiyac və gözləntilərini əks etdirməsini təmin etmək üçün biz işlədiyimiz cəmiyyətlərlə möhkəm əlaqələr saxlamağa çalışırıq.

## İcmaların cəlb edilməsi

İcmaların cəlb edilməsi ilə bağlı yanaşmamız illərdir davam edən əməliyyatlarımız müddətində diqqətlə inkişaf etdirdiyimiz qarşılıqlı etimada əsaslanır.

Yerli icmalara sərmayə qoymaq şirkətin strategiyasında və davamlılıq yanaşmasında nəzərdə tutulan əsas məqsədlərdən biridir. SOCAR AQŞ-nin əməliyyatlarından irəli gələn yerli icmaların inkişafına töhfə verən əsas amillər yerli ictimaiyyətdən işə qəbul prosesinin genişləndirilməsi və yerli gənclər üçün təşkil edilən təşəbbüslər və layihələrdir. Cəmiyyətə verdiyimiz töhfələr diqqətlə hazırlanmış, yerli icmanın və iqtisadiyyatın unikal ehtiyaclarına uyğunlaşdırılmışdır.

Layihələrimiz xarici maraqlı tərəflərimiz üçün ən aktual olan məsələlərə xüsusi vurğu ilə həyata keçirdiyimiz bir sıra mövzuları əhatə edir. Bu məsələlər **Şəkil 17** və **Cədvəl 6-da** təsvir edilmişdir.

**Şəkil 17. İcmaların cəlb edilməsi üzrə prioritet sahələr**




**Cədvəl 6. İcmaların cəlb edilməsi üzrə prioritet sahələrə dair bəyanatlar**

| DİM | PRİORİTET SAHƏ | BƏYANATIMIZ |
|---|---|---|
| 3 GOOD HEALTH AND WELL-BEING | SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK | Məsul işəgötürən kimi biz əməkdaşlarımızın və podratçılarımızın sağlamlığına və təhlükəsizliyinə böyük əhəmiyyət veririk. SƏTƏM-ə yanaşmamız haqqında daha ətraflı məlumat əldə etmək üçün "SOCAR AQŞ-də Sağlamlıq və Təhlükəsizlik" bölməsinə nəzər salın. |
| 4 QUALITY EDUCATION | TƏHSİL | Biz təhsilin inkişaf edən cəmiyyətin təməl sütunu olduğu qənaətindəyik və buna görə də müxtəlif təşəbbüslər vasitəsilə yerli icmalar daxilində keyfiyyətli təhsili təşviq etməyə çalışırıq. Biz tələbələrə təhsil təqaüdləri, yay təcrübələri, konfranslar və karyera sərgiləri vasitəsilə dəstək olmağa davam edirik. |

| DİM | PRİORİTET SAHƏ | BƏYANATIMIZ |
| --- | --- | --- |
| 11 SUSTAINABLE CITIES AND COMMUNITIES | SOSİAL XİDMƏTLƏR | Sosial xidmətlərimiz icmalar ilə birbaşa əməkdaşlığımız, gənclərin cəlb edilməsi layihələrimiz, daxili maraqlı tərəflərimiz üçün iş şəraiti və faydaları, eləcə də təchizat zəncirimiz vasitəsilə biznes imkanlarının yaradılması da daxil olmaqla müxtəlif təşəbbüslərdən ibarətdir. |
| 14 LIFE BELOW WATER<br>15 LIFE ON LAND | ƏTRAF MÜHİT | Ətraf mühitin mühafizəsi və yerli ekosistemlərin bərpasına yönəlmiş təşəbbüslərimiz hələ çox olmasa da, biz DİM prioritetlərimizə tam uyğunluğu təmin etmək üçün bu prioritet sahəni genişləndirməyə çalışırıq. Buna görə də biz meşə yanğınlarından zərər çəkmiş meşələrin yaşıllaşdırılması və 1000 ağac əkilməsi kampaniyasına qoşularaq Türkiyəyə dəstək verdik.<br><br>Ətraf mühitə yanaşmamız haqqında daha ətraflı məlumat əldə etmək üçün "Ətraf mühitin idarə edilməsi" bölməsinə nəzər salın. |
| 16 PEACE, JUSTICE AND STRONG INSTITUTIONS | MİLLİ DƏYƏRLƏR | Biz milli birliyimizi canlandırmaq və şəhid ailələrinə və müharibə iştirakçılarına həmrəylik nümayiş etdirmək üçün böyük addımlar atırıq. Belə ki, qazilərə və müharibədə iştirak edən əməkdaşlarımıza yardımlar və ianələr etdik. Bundan əlavə, biz Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti üçün də su qızdırıcıları hazırlamışıq. |



Şəkil 18. SOCAR AQŞ-nin sponsorluq fəaliyyəti




2021-ci ildə SOCAR AQŞ Ukrayna Qaz İnvestisiya Konqresinin **qızıl sponsoru** olmuşdur. Bu Konqres dünya enerji liderlərini qaz sektorunun gələcək baxışının formalaşması, ümumi maraqların müəyyənləşdirilməsi və əməkdaşlığın qarşılıqlı faydalı formalarının tapılması kimi ümumi məqsədlər ətrafında birləşdirmək məqsədi daşıyır.




Hesabat ilində SOCAR AQŞ "IADC World Drilling 2021" Konfrans və Sərgisinin **qızıl sponsoru** olmuşdur. Konfransda strateji liderlik baxımından neft-qaz sahəsində yaranan potensial problemlər və imkanlar nəzərdən keçirilib. Konfrans texnologiya, müxtəliflik, müqavilələrin bağlanması, əməkdaşlıq və rəqəmsal həllər kimi müxtəlif sahələrdə maraqlı tərəflərimiz üçün dəyər təkliflərinin artırılması mövzusuna həsr olunub.




SOCAR  AQŞ-nin İnsan kapitalı üzrə meneceri «Pandemik və postpandemik əhali üçün həll» mövzusunda İR sessiyasında iştirak edərək, SOCAR AQŞ-nin pandemiya və post-pandemiya dövrlərində biznesin dayanıqlığını artırmaq üçün həyata keçirdiyi tədbirlər haqqında təqdimatla çıxış edib.




SOCAR AQŞ-nin aparıcı kommersiya analitiki İADC SƏTƏM və Dayanıqlılıq üzrə Avropa Konfransının "Sənayedə Qadınlar" panel sessiyasında Müxtəliflik və İnklüzivlik (Mİ) mövzusunda çıxış edərək təşkilatımız üçün inklüzivliyin və müxtəlifliyin əhəmiyyətini vurğulayıb.

8 DECENT WORK AND ECONOMIC GROWTH

## Gənclərin cəlb edilməsi

SOCAR AQŞ-də biz gənclərin cəmiyyətimizin gələcəyi olduğuna inanırıq. Buna görə də biz az təmsil olunan əhali qruplarının fəal iqtisadi iştirakını təmin etmək məqsədi ilə Azərbaycanda gənclərin inkişafına töhfə verməyə çalışırıq.

Yerli gənclərlə əlaqə qurmağın və onların iqtisadiyyatda iştirakını təşviq etməyin yollarını axtararkən, dəyərlərimizi təbliğ etmək və cəmiyyətə inteqrasiyasını gücləndirmək üçün əməkdaşlarımızın könüllü və birbaşa iştirakını və təşəbbüsünü təşviq etməyə çalışırıq. Buna görə də biz qürurla bildiririk ki, əməkdaşlarımız gələcəkdə SOCAR AQŞ-də işlə təmin olunmaq potensialına malik yerli gənclərin inkişafı üçün müxtəlif təhsilə dəstək proqramları təşkil etmişlər. Bizim təşəbbüslərimizə yay təcrübə proqramı və digər təhsil tədbirləri, o cümlədən müsabiqələr və konfranslar daxildir.

# Konfranslar



Bakı Ali Neft Məktəbinin SOCAR AQŞ-nin dəstəyi ilə təşkil etdiyi «Neft-qaz geologiyası və mühəndisliyi» konfransı enerji və ətraf mühitdən iqtisadi məsələlərə qədər müxtəlif mövzuları əhatə edib. Konfransda 46 gənc tədqiqatçı və tələbə bir araya gəlib. Bu tədbir vasitəsilə biz iştirakçılar və əsas məruzəçilər arasında ünsiyyət və bilik mübadiləsi üçün mühit yaratmağa çalışdıq.  Məruzəçilər quyuların istismarı, layların işlənməsi və idarə edilməsi, məhsulların optimallaşdırılması, quyuların planlaşdırılması və qazma əməliyyatlarının təkmilləşdirilməsi, neft kəşfiyyatı və hövzələrin təhlili, neft hasilatı və nəqli zamanı enerji qənaəti, habelə neft iqtisadiyyatının səmərəliliyinin təhlili kimi geniş mövzulara toxunub.

# Karyera yarmarkaları

Gənclərin işə cəlb olunmasını təmin etmək məqsədilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində işimizlə əlaqəli sahələr üzrə təhsil alan tələbələr üçün karyera yarmarkalarında, eləcə də təcrübə imkanlarında iştirak etməyə davam edirik. Biz inanırıq ki, gənc istedadları cəlb etməklə biz təkcə gənclərin iqtisadi iştirakına töhfə vermirik, həm də gənc nəslin yeni dünyagörüşü vasitəsilə şirkətimizin qarşısında aktual problemlərin həlli üçün yeni yollar açırıq. Beləliklə, hesabat ili ərzində SOCAR AQŞ gənc nəslin fəal iştirak edərək bizə öz bacarıqlarını nümayiş etdirə biləcəyi konfrans və təcrübə proqramlarına başlamışdır.



# SOCAR AQŞ-nin əməkdaşları

SOCAR AQŞ-də biz təşkilatımızın uğurlu fəaliyyətində əvəzsiz rola malik olan əməkdaşlarımıza mühüm dəyər veririk. Buna görə də biz hər kəsin ədalətli və layiqli iş şəraitinə çıxışını təmin etməklə yanaşı, əməkdaşlarımız üçün əlverişli mühit yaratmağa çalışırıq. Bundan əlavə, biz iş yerimizdə inklüzivliyin və müxtəlifliyin təşviqi üçün xeyli addımlar atır, peşəkar inkişaf üçün bərabər imkanlar təmin edir, fayda təkliflərimizlə bağlı rəqabət qabiliyyətimizi qoruyuruq.

8 DECENT WORK AND ECONOMIC GROWTH

## Təlim və İnkişaf

SOCAR AQŞ-də biz işçilərimiz üçün inkişaf imkanlarını dəqiq karyera yolu və onların təlim və inkişafına lazım olan vasitələr ilə təmin edirik.

**2021** -ci ildə **4173** təlim saatı

SOCAR AQŞ üçün işçilərin inkişafına sərmayə qoymaq bizim uzunmüddətli perspektivdə insan resurslarının səmərəliliyini artırmaq səylərimizin mühüm hissəsini təşkil edir. Onlayn Təlimin İdarə Edilməsi Sistemindən (TİES) istifadə etməklə bütün təlimlər və proqramlar daha əlçatan və səmərəli olur və orada texniki, liderlik və sosial bacarıqların təkmilləşdirilməsinə yönələn bir sıra təhsil imkanları üçün alətlər təqdim olunur. İnkişaf sahəsindəki fəaliyyətlərin məqsədi işçilərə öz vəzifələrini tələb olunan səviyyədə yerinə yetirmək üçün ehtiyac duyduqları bilik və qabiliyyətləri verməkdir. Biz əməkdaşlarımız üçün **HMM, MIT və digər liderlik proqramlarında** və böyük tədbirlərdə iştirak etmək kimi bir sıra təlim və inkişaf alətləri və imkanları təqdim edirik. Bundan əlavə, Ana Şirkətimiz müəyyən Təlim və inkişaf tədbirləri təşkil edir və **17000-dən çox rəqəmsal təlim platformasına** giriş imkanı verir.

Ümumilikdə, Təlim və İnkişaf prosesimiz **Şəkil 19-da** təsvir olunan mərhələlərdən ibarətdir.

**Şəkil 19. Təlim və inkişaf prosesi**

**İnkişaf ehtiyaclarının müəyyən edilməsi**
Fərdi inkişaf ehtiyacları korporativ məqsədlər, funksional hədəflər, şəxsi məqsədlər təyin edildikdən və əvvəlki il üzrə fəaliyyət nəticələri təhlil edildikdən sonra müəyyən edilir.

**Bacarıqların inkişafının planlaşdırılması**
Bacarıqların inkişafı planı inkişaf ehtiyacları üzrə toplanmış məlumatlar əsasında hazırlanır və Ümumi İnkişaf Tədbirlərini (əməkdaşların işinin səmərəliliyinin artırılması proqramları) və Məcburi Təlim Tədbirlərini (tənzimləyici orqanlar tərəfindən tələb olunan proqramlar) özündə birləşdirir.

**İnkişaf tədbirlərinin təşkili**
İnsan Kapitalı Departamenti tərəfindən yoxlanıldıqdan sonra daxili təlimçilər təlimlərə uyğun gəlmədikdə, müvafiq təchizatçıların cəlb edilməsinin zəruriliyi barədə Təchizat Departamentinə məlumat verilir.

**Təsir və səmərəliliyin qiymətləndirilməsi**
Bu mərhələyə texniki bacarıqların inkişafı məqsədilə nəzərdə tutulmuş təlimlərdə işçinin fəaliyyətinin qiymətləndirilməsi üçün xüsusi və ya praktiki imtahanlar daxildir. Qeyri-texniki bacarıqların inkişafı üçün nəzərdə tutulmuş təlimlər təlim alan şəxsin özünü qiymətləndirməsini nəzərdə tutur.

Əməkdaşların inkişafını təmin etmək istiqamətində davamlı səylərimiz sayəsində qürurla bildiririk ki, beş əməkdaşımızın əlyazmaları OnePetro kitabxanasında nəşr olunub. OnePetro neft və qaz kəşfiyyatı və hasilatı üzrə texniki ədəbiyyatlar toplusu təklif edən onlayn kitabxanadır.

**Cədvəl 7. Təlimlərin statistikası, 2021**

| Kateqoriya | Təlimlər | İştirakçılar |
|---|---|---|
| Könüllü sessiyalar | 15 | 696 |
| Məcburi sessiyalar | 14 | 274 |

Əməkdaşlarımıza təlim imkanları təqdim etmək öhdəliyinə uyğun olaraq, SOCAR AQŞ mütəxəssisləri üçün ciddi və kompleks tədris proqramları keçirmək məqsədilə biz Bakı Qazma Məktəbi (BQM) ilə əməkdaşlıq edirik. BQM beynəlxalq səviyyədə akkreditə olunmuş təlim və konsaltinq mərkəzidir və hazırda ən müasir “Endeavour X1 Platinum” və “Qazma Sistemləri DrillSim-50” simulyatorları vasitəsilə 40 təlim kursu təqdim edir.

## İşçilərin rifahı

SOCAR AQŞ-də biz inanırıq ki, işçilərimiz fiziki və ya emosional çətinliklərə baxmayaraq hər kəsin inkişaf etmək imkanı olan iş mühitinə layiqdirlər.

SOCAR AQŞ işçilərin rifahının əhəmiyyətini dərk edir və başa düşür ki, o, iş yerindəki gözləntilər və stress, çeviklik və müstəqillik səviyyələri, rəhbərlər və həmkarlarla qarşılıqlı münasibətlərin səmərəliliyi, növbəli iş tezliyi və iş gününün uzunluğu da daxil olmaqla müxtəlif amillərin təsirinə məruz qala bilər. Şirkət daxilində işçilərin rifahını təmin etmək və dəstəkləmək məqsədilə biz əməkdaşların motivasiyasını və rifahını yüksəltmək, həmçinin əməkdaşların məmnunluğuna nail olmağa yönəlmiş geniş miqyaslı korporativ sosial proqramlar təqdim edirik. Korporativ sosial proqramlarımız haqqında daha ətraflı məlumat əldə etmək üçün **Şəkil 20-ə** nəzər salın.

Şəffaflığı qorumaq və ümumi təşkilati strategiyanın və korporativ dəyərlərin bütün daxili maraqlı tərəflərə aydın şəkildə təqdim olunmasını təmin etmək məqsədi ilə əməkdaşlarımız ilə aydın kommunikasiya kanalının yaradılması uzun illərdir ki, şirkət mədəniyyətinin bir hissəsidir. Korporativ strategiyanın daxili maraqlı tərəflərin diqqətinə çatdırılması əməkdaşlara şirkət rəhbərliyindən öz gözləntilərini başa düşməyə və hər bir şəxsin gözləntilərinin vaxtında və dəqiq həyata keçirilməsini təmin etməyə imkan verir. Beləliklə, biz şirkət kimi **“Danış”** və **“Açıq qapı”** siyasətlərimizi özündə cəmləşdirən və işçilərin öz fikirlərini və qarşılaşdıqları problemləri heç bir tərəddüd etmədən bölüşməyə sövq edən bir mədəniyyət qururuq. Bundan əlavə, ana şirkətimiz bütün işçilərin öz narahatlıqlarını və/və ya hər hansı məsələlərini həm yazılı, həm də şifahi formada bildirə biləcəyi qaynar xətt yaratmışdır ki, bu addımın da daha sağlam və layiqli iş mühitinin yaradılmasına gətirib çıxaracağına inanırıq.

**Şəkil 20. SOCAR AQŞ tərəfindən təklif olunan üstünlüklər**




## Müxtəliflik və inklüzivlik

SOCAR AQŞ-də biz müxtəlif və inklüziv iş yerindən yaranan imkanlardan istifadə etməyə çalışırıq.

Biz iş yerində bərabərlik , müxtəliflik və inklüzivlik prinsiplərinin qurulmasının şirkətin döyünən ürəyi olduğunu qəbul edirik və bununla, SOCAR AQŞ-nin əsas dəyərlərindəki bu anlayışları əhatə edirik. Biz şirkətimizdə bütün 904 işçimiz arasında əməkdaşlıq və inklüzivlik prinsiplərini inkişaf etdirir və onu qoruyub saxlayırıq. Beləliklə, biz daim əməkdaşlarımız arasında, xüsusən də rəhbər vəzifələrdə müvafiq şəkildə təmsil olunmanı təmin etmək üsulları axtarırıq.

Gender bərabərliyini təşviq etmək səylərimiz sayəsində biz, son illər ərzində rəhbər vəzifələrdə çalışan qadınların faizinin artmasına nail olmuşuq və bu göstərici 2020-ci ildəki 9,2%-dən 2021-ci ildə 15,15%-ə yüksəlmişdir **(Şəkil 21)**. Hesab edirik ki, bu, bizim iş yerində işçilərə bərabər imkanlar yaradaraq əməliyyatlarımızda gender bərabərliyini tətbiq etmək istiqamətindəki səylərimizin birbaşa nəticəsidir.

Kişilərin üstünlük təşkil etdiyi neft-qazma xidmətləri sahəsində qadınların daha çox təmsil olunmasına nail olmaqla, qadın əməkdaşlarımızın ənənəvi olaraq kişilərin üstünlük təşkil etdiyi sahədə inkişaf etmələrinə imkan vermək üçün açıqlıq və dürüstlük mədəniyyətini inkişaf etdirməyə çalışırıq. Bizim təlim və inkişaf proqramlarımız cinsindən və yaşından asılı

**Şəkil 21. SOCAR AQŞ-də rəhbər vəzifələrdə çalışan qadınların faizi**[1]




**Şəkil 22. Yerli icmadan işə götürülən yüksək idarəetmə nisbəti**




olmayaraq bütün əməkdaşlarımız üçün bərabər əsasda hazırlanmışdır ki, hər kəs öz bacarıqlarını ən yaxşı şəkildə yerinə yetirsin.

Cəmiyyət daxilində bərabər imkanlar təmin etməyə çalışaraq, biz yerli icmalardan işə qəbul faizini artırmaq üçün tədbirlər görməyə davam edirik, bunu **Şəkil 22-də** görmək mümkündür. Yerli mütəxəssislər şirkət daxilində əsas işçi qüvvəsinə çevrilir və bununla da milli ÜDM-ə və yerli iqtisadi amillərə təsir göstərir. Bu, etnik təmsilçilik baxımından müxtəliflik səviyyəsinə potensial təsir göstərsə də, biz müxtəlif etnik, dini, yaş, əlillik və gender qruplarından olan insanları cəlb etmək yollarını araşdırmağa davam edirik.

Biz müxtəlifliyə və bərabər imkanlara sadiqliyimizi dəstəkləməyə davam edərkən, şirkətimizdə bütün əməkdaşlarımızın inkişaf etməsi üçün müvafiq şəraitin olmasını təmin etmək yollarını axtarmağa davam edirik. Buna görə də biz sosial cəhətdən məsul şirkət olaraq təcrid olunmuş qruplar üçün imkanlar yaratmaq məqsədilə əlilliyi olan şəxslərin cəlb edilməsi istiqamətində səylərimizi davam etdiririk.

**Cədvəl 8. Əlilliyi olan şəxslərin məşğulluğu**[2]

| Kateqoriya | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Əlilliyi olan şəxslər | 12 | 12 | 12 |
| Məcburi köçkünlər | 44 | 43 | 41 |

## Qadınların səlahiyyətlərinin artırılması haqqında

Məsul işəgötürən kimi biz cəmiyyətin inkişafına verdiyimiz töhfəyə görə cəmiyyət qarşısında məsuliyyət daşıdığımızı qəbul edirik. Bu məsuliyyətin bir hissəsi ölkənin iqtisadi fəaliyyətində qadınların iştirakı üçün bərabər imkanların yaradılmasını təmin etməkdir. Biz stereotiplərin qırılmasına və ənənəvi olaraq kişilərin üstünlük təşkil etdiyi neft-qaz sahəsində qadınların fəaliyyətinin genişləndiriləcəyinə inanırıq.

[1] Hesabat ili ərzində aparılan restrukturizasiya nəticəsində yerli insanların işə cəlb edilməsi şirkətin strategiyasının diqqət mərkəzində olduğundan, yerli icmadan rəhbər vəzifələrə işə götürülən işçilərin sayı artmışdır.

[2] Hesabat dövrü ərzində aparılan restrukturizasiya ilə əlaqədar məlumatların düzgün əks olunmasını təmin etmək üçün əvvəlki illərin hesabatlarındakı rəqəmləri nəzərdən keçirdik, bu səbəbdən müəyyən göstəricilər fərqlənə bilər.

3 GOOD HEALTH AND WELL-BEING

## SOCAR AQŞ-də sağlamlıq və təhlükəsizlik

SOCAR AQŞ-də sağlamlıq və təhlükəsizlik şirkətin bütün dəyərləri arasında ən yüksək prioritet təşkil edir və əməliyyat zamanı sıfır qəza hallarına nail olmağa çalışır.

# SƏTƏM idarəetməsi

Hesabat dövrü ərzində KSƏTƏM bölməsinin strukturu yenidən nəzərdən keçirilib və istehsal xəsarətlərinin və qəza hallarının sayını azaltmaq məqsədilə yeni təyinatlar əlavə edilib.

**Şəkil 23. Prosedur İntizamı proqramının təsviri**

| | |
|---|---|
| 1 | Müvafiq prosedurların ehtiyat nüsxəsini çıxarmaq üçün lazım olan vəzifələrin müəyyənləşdirilməsi |
| 2 | Qabaqcıl sınaq prosedurları |
| 3 | Prosedurların dövri auditi |
| 4 | Prosedurun heyət tərəfindən nəzərdən keçirilməsi |

Biz yeni yanaşma və iş aparma metodlarını tətbiq etdikcə, həm daxili proseslərdə, həm də Əməyin Mühafizəsi və Təhlükəsizliyi prosedurlarında insan səhvi riskini minimuma endirmək üçün iş axınının rəqəmsallaşdırılmasına və optimallaşdırılmasına xüsusi diqqət yetiririk. Biz bunu nəzərə alaraq hazırda KSƏTƏM prosesinin optimallaşdırılması üçün istifadəyə veriləcək proqram platforması hazırlayırıq.

2021-ci ildə, SOCAR AQŞ əməkdaşların prosedur və siyasətlərə uyğunluğunu artırmaq üçün Prosedur İntizamı Proqramını **(Şəkil 23)** hazırlamışdır.



**Cədvəl 9. Təhlükəsizlik göstəriciləri**

| Kateqoriya | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Ölüm hallarının sayı | 0 | 0 | 0 |
| Qeydə alına bilən xəsarətlərin ümumi sayı | 2 | 4 | 2 |
| Vaxt itkisinə səbəb olan hadisələrin sayı (VİH) | 2 | 1 | 1 |
| Hadisə nəticəsində itirilmiş günlərin sayı | 144 | 24 | 9 |
| Ümumi qeydə alına bilən xəsarətlərin tezliyi, hər 200.000 saat üzrə (TRİFR) | 0.2 | 0.4 | 0.2 |
| VİH- tezliyi, 200.000 iş saatı üzrə | 0.2 | 0.1 | 0.1 |
| Ümumi iş saatları | 1,920,427.5 | 2,048,155 | 1,934,162 |

# Sağlamlıq və təhlükəsizlik mədəniyyətinin dəyişməsi

Hesab edirik ki, əməkdaşlarımız işimizin və uğurumuzun əsas hərəkətverici qüvvəsini təşkil edir. Buna görə də, biz bütün əməkdaşlarımızın və podratçılarımızın təhlükəsizlik standartları, prosedurları, eləcə də iş prosesi ilə bağlı tələb olunan bacarıq və biliyə malik olduqlarından daim əmin olmağa çalışırıq. Bu məqsədlə biz yerli və beynəlxalq tələblərə uyğun təlimlərə başladıq, eyni zamanda zərurət yarandıqda xüsusi təlim proqramları təşkil etdik. Bundan əlavə, sahədə çalışan əməkdaşlarımız iş öhdəliklərini yerinə yetirmək üçün tələb olunan bacarıqları artırmaq məqsədilə platformalarda xüsusi təlim proqramlarından keçirlər.

İş yerində təhlükəsizlik mədəniyyətinə uyğunluğun gücləndirilməsi istiqamətində şirkətimiz davamlı irəliləyişlər əldə edir. Bunun bir hissəsi kimi aşağıdakı fəaliyyətlər **(Şəkil 24)** irəliyə aparan fəaliyyətlər kimi prioritetləşdirildi və bütün şirkətdə təhlükəsizliyin yenidən formalaşdırılmasına başlamaq üçün 2021-ci ilin əvvəlindən etibarən həyata keçirildi. Bunun nəticəsi olaraq, 2021-ci ilin sonuna qədər VİH və hadisə ilə əlaqədar itirilmiş günlərin sayı azaldı.

Bundan əlavə, sağlamlıq və təhlükəsizliyə fəal yanaşmanı təşviq etmək üçün biz işçiləri KSƏTƏM bölməsinə verdikləri töhfəyə görə mükafatlandırırıq. İşçilərə **"Təhlükələrin Müəyyənləşdirilməsi və Aradan qaldırılmasına görə Mükafat"**, **"Təhlükəsizlik sahəsindəki Yeniliklərə görə Mükafat"**, həmçinin **"Təhlükəsizlik sahəsində Liderliyə görə Mükafat"** kimi bir çox mükafatlar verilir. Bu mükafatlandırma sistemi innovativ ideyalar irəli sürmək üçün yeni və yaradıcı həlləri açıqlamağa, müzakirə etməyə və araşdırmağa həvəsləndirir və qrup əməliyyatları zamanı komanda işini gücləndirir.
Biz SƏTƏM ilə bağlı hadisələrin qarşısını almaq üçün təhlükəsizlik əməliyyatları üzrə lazım olan bilik və bacarıqlarda boşluqları azaltmaq məqsədilə əməkdaşlar və podratçılar üçün müvafiq təlimlər keçiririk **(Şəkil 25)**.

**Şəkil 24. SOCAR AQŞ-nin SƏTƏM-ə yanaşması**

**SƏTƏM kommunikasiyası**

SƏTƏM sahəsində kommunikasiyanı artırmaq və müsbət mədəniyyət formalaşdırmaq üçün ən düzgün yol təhlükəsizlik məsələləri ilə bağlı həftəlik və ya aylıq söhbətlər aparmaqdır. Bundan əlavə, hətta uzaqdan aparıla bilən danışıqlara rəhbərlik etməklə işçilərin işə marağını artırmaq olar. Təşkilatımızın qabaqcıl təcrübəsi və gözləntiləri barədə məlumat verən təhlükəsizlik siyasətləri həm elektron, həm də kağız sənədlərdə asanlıqla əldə edilə bilər.

**Təlimlərin təmin edilməsi**

İşçilərə təlimin keçirilməsi bizim təhlükəsizliyə verdiyimiz dəyəri nümayiş etdirir. Təlim keçmiş işçilər təhlükəsizlik mədəniyyətini daha asanlıqla mənimsəyir, çünki onlar iş yerində təhlükəsizliyin təmin edilməsi zamanı yarana biləcək təhlükələrdən və onların təsirlərindən xəbərdardırlar. Təlim təlimatlarını möhkəmlətmək üçün təlim sessiyalarındakı əsas məlumatları mütəmadi olaraq nəzərdən keçirmək vacibdir.

**Nümunə ilə yol göstərmək**

Biz işçilərin eyni şeyi etməsini təşviq edən bütün prosedurlara / təlimatlara əməl etməklə onlara nümunə oluruq. Əgər rəhbərlik təhlükəsizliyi təmin etməyi öhdəsinə götürürsə, işçilər də buna əməl edəcəklər. Müsbət təhlükəsizlik mədəniyyətinin olmasında işçilərin maraqlı olması mühüm əhəmiyyət kəsb edir. İşçilər siyasət və prosedurlara rəhbərləri tərəfindən riayət olunduğunu görmədikləri təqdirdə təhlükəsizliyə əməl etməkdə maraqlı olmayacaqlar. Təhlükəsizlik "az danış – çox iş gör" fikrindən daha çoxunu ifadə edir.

**Sağlam Təşkilati Hesabatlılıq Mədəniyyətinin Təşviqi**

Biz təhlükəsizlik riskləri və ya narahatlıqları barədə məlumat verən işçiləri mükafatlandırırıq. Əməkdaşlar narahat edən məsələləri hesabat verməklə özlərini daha rahat hiss etdikdə və hesabat vermə prosesinin müsbət olduğuna inandıqda, müsbət təhlükəsizlik mədəniyyətini qurmaq və saxlamaq daha asan olacaq.

**İşçilərin cəlb edilməsi**

Biz güclü təhlükəsizlik mədəniyyətini sıfırdan yaratmağa və qorumağa başladıq. İşçilərin prosesdə iştirakına nail olmağın digər yolu onların bu prosesə cəlb edilməsidir. Onlardan hesabat prosesi ilə bağlı istəklərini və gözləntilərini soruşub və ya hazırkı kommunikasiya metodları barədə rəylərini alırıq.

**SƏTƏM üzrə Komitəmizin fəaliyyəti**

Fəal "SƏTƏM Komitəsi"nə malik olmaq təhlükəsizlik mədəniyyətini fəaliyyətdə göstərmək üçün mükəmməl yoldur. O, işçilər ilə rəhbərlik arasında təhlükəsiz iş və müsbət təhlükəsizlik mədəniyyətini qorumağa sadiqliyini göstərir.

**Şəkil 25. Hesabat ilində keçirilmiş KSƏTƏM üzrə təlimlər**




# 5-ulduzlu təhlükəsizlik proqramı

Mədəniyyət dəyişikliyimizin bir hissəsi olaraq bu yaxınlarda əməkdaşlarımızı KSƏTƏM tələblərinə riayət etməyə təşviq etmək məqsədilə hazırlanmış 5 ulduzlu proqram hazırlamışıq. Proqram, işçilərin SƏTƏM tələblərinə uyğunluğuna görə ulduz qazandıqları və ya itirdikləri bir sistemdən ibarətdir, bundan sonra ulduzların sayından asılı olaraq onlara ya mükafat verilir, ya da işdən çıxarılır.

# SƏTƏM hesabatı

Şirkət daxilində hesabatlılığı və məsuliyyəti artırmaq üçün biz dəqiq hesabat sistemi hazırlamışıq. Bu sistem vasitəsilə biz mühüm kommunikasiya vasitəsi olan həftəlik görüşlər keçiririk və bununla əsas tendensiyaları, planları və statistik məlumatları yüksək və orta idarəetmə səviyyəsindən olan şəxslərə  çatdırırıq. Rəhbər vəzifəli şəxslərin SƏTƏM proseslərinə cəlb olunmasını təmin etmək üçün idarəetmənin təhlil iclasları illik əsasda keçirilir, onların gündəliyinə hazırkı siyasət və şikayətlər üzrə əsas məqsədlər, vəzifələr və tövsiyələr daxildir.

Hadisə baş verdikdə, tam araşdırma prosesi hadisə haqqında ilkin məlumat verildikdən sonra araşdırma qrupu ilə hesabat verən şəxs arasında əməkdaşlığı nəzərdə tutur. Daha sonra yekun qeydlər toplanır və ana şirkətə hesabat vermək üçün hazırlanır.

Hesabat təcrübəmizdə digər mühüm alət Təhlükəsizlik Müşahidə Kartı sistemidir. Bu sistem vasitəsilə əməkdaşlarımız öz müşahidələri haqqında məlumat verir, bundan sonra hadisələrin məcmusu Reyestrdə toplanır və nəticədə düzəliş tədbirləri həyata keçirilir. KSƏTƏM standartlarımızın yerinə yetirilməməsi hallarına rəhbərlik nəzarət edir. Şikayətlərə baxılması prosedurumuz sayəsində hallar qiymətləndirilir və zəruri hallarda əlavə tədbirlər görülür.

# Siyasət və prosedurlar

SOCAR AQŞ SƏTƏM bölməsinin düzgün iş prosesini təmin etmək üçün bir sıra proseslər və prosedurlar hazırlamış və müəyyən etmişdir. Proseslər və prosedurlar **Şəkil 26**-da ətraflı təsvir edilmişdir.

**Şəkil 26. SƏTƏM bölməsinin iş prosesi**

**TMRQ proseduru**

- Təhlükənin müəyyənləşdirilməsi
- Risklərin qiymətləndirilməsi
- Nəzarət tədbirlərinin müəyyənləşdirilməsi

**Gündəlik SƏTƏM Təlimatları**

- Müvafiq prosedurun müzakirəsi
- Hər bir tədbirin müəyyənləşdirilməsi
- Müvafiq ehtiyat tədbirlərinin müzakirəsi
- Təhlükəsizlik metodlarının müəyyənləşdirilməsi
- Məsuliyyətlərin bölüşdürülməsi

**Hadisələrin araşdırılması və Əsas Səbəbin analizi**

- Hadisələrin bildirilməsi qaydaları, o cümlədən:
  - işçilərin yerləşdiyi yer, tarix və işçinin adı
  - hadisə zamanı görülən tədbir
  - əlavə qabaqlayıcı və düzəliş tədbirləri haqqında hesabat
- Hadisələrin əsas səbəblərinin təhlili və sənədləşdirilməsi
- Düzəliş tədbirlərinin təşkili, mümkün hadisələrin minimuma endirilməsinə nəzarətin həyata keçirilməsi

# Go kart

Go kart sistemi əməliyyatlar zamanı yarana biləcək SƏTƏM ilə əlaqəli potensial riskləri və təhlükələri müəyyənləşdirmək üçün ilkin qiymətləndirmə vasitəsi kimi istifadə olunur.

Daha dəqiq desək, cari proses üçün potensial risklərin təsvirini ehtiva edən Go Kart forması təyin olunmuş şəxslər tərəfindən hazırlanır, doldurulur və birbaşa nəzarətlə yoxlanılır. Bundan əlavə, SƏTƏM həlləri və onlara cavabdeh olan şəxs müəyyənləşdirilir və qəbul edilir.  Go Kart sistemə təqdim edildikdən sonra SƏTƏM məsləhətçisi SƏTƏM tələblərinə uyğunluğu qiymətləndirir.

# Ətraf mühitin idarə edilməsi

## İqlim dəyişikliklərinə qarşı cavab tədbirləri

Ətraf mühitin mühafizəsi öhdəliyimiz təkcə yerli ekosistemi əhatə etmir belə ki, biz iqlim dəyişikliyi ilə qlobal mübarizəyə öz töhfəmizi verməyə çalışırıq.

Bir şirkət kimi biz iqlim dəyişikliyi ilə mübarizədə öz töhfəmizi artırmağa səy göstəririk. Qlobal böhranın miqyasını dərk edərək, biz mənfi təsirimizi minimuma endirmək və ətraf mühitin mühafizəsinə töhfəmizi maksimum dərəcədə artırmaq yollarını axtarırıq. Bu istiqamətdəki səylərimiz bir sıra layihə və təşəbbüsləri, eləcə də gələcək üçün konkret fəaliyyət planlarını əhatə edir.

Ətraf mühitin idarə edilməsi təcrübəmizi təkmilləşdirmək üçün bütün əlverişli variantları araşdırdıqca biz bərpa olunan enerji mənbələrindən və hibrid texnologiyalardan istifadə etməyə çalışırıq. Bəzi fəaliyyət planlarımıza meşələrin bərpası və stasionar qazların istilik effektinin azaldılması daxildir. Bundan əlavə, biz iqlim dəyişikliyinə təsir sahələrimizi və **Cədvəl 10-da** göstərilən müvafiq cavab tədbirlərini müəyyənləşdirdik.

**Cədvəl 10. İqlim dəyişikliyinin təsir sahələri və SOCAR AQŞ-nin cavab tədbirləri**

| | Bizim mövqeyimiz | İstinad |
|---|---|---|
| Havanın çirklənməsi | **Məlumat**<br>Biz başa düşürük ki, insan fəaliyyəti, xüsusən də havaya tullantılar iqlim dəyişikliyinin artmasında mühüm rol oynayır.<br>**Cavab tədbiri**<br>Biz İQ emissiyalarımızı azaltmaq öhdəliyinə sadiqik. Hesabat ili ərzində biz əməliyyatlarımızın karbon izini və xidmətlərin göstərilməsi zamanı istifadə olunan avadanlıqları hərtərəfli qiymətləndirmişik. Qarşıda hələ bir çox həllər olmaqla, bu karbon tullantılarının azaldılmasına bizim ilk addımımızdır. | Havanın çirklənməsi |
| Enerjidən istifadə | **Məlumat**<br>Enerji sərfiyyatı qlobal miqyasda İQ emissiyalarının ən böyük mənbəyidir. Bundan əlavə, elektrik enerjisi, istilik və sənaye üçün qalıq yanacaqların yandırılması istixana qazı emissiyalarının başqa bir mənbəyidir.<br>**Cavab tədbiri**<br>İqlim dəyişikliyinə qarşı mübarizəyə öz töhfəmizi vermək məqsədilə ofisdə və əməliyyatların bütün mərhələlərində enerji sərfiyyatının azaldılmasının müxtəlif yollarını araşdırırıq. | Enerji sərfiyyatı |
| Torpaq və biomüxtəliflik | **Məlumat**<br>Əməliyyatlarımızı neft və qaz sənayesində apardığımız üçün biz Azərbaycanın torpağına, suyuna və biomüxtəlifliyinə təsirimizi minimuma endirməklə yerli ekosistemlərin qorunmasını təmin etmək öhdəliyimizi dərk edirik.<br>**Cavab tədbiri**<br>Fəaliyyət göstərdiyimiz sahədə canlı təbiətə mənfi təsir göstərməmək üçün biz, su və plankton nümunələrinin götürülməsi, tullantıların qarşısının alınması, eləcə də tullantıların idarə olunması sistemi kimi bir sıra prosedurları həyata keçiririk. Eyni zamanda, biz yerli ekosistemlərin çiçəklənməsini təmin etmək, həmçinin əməkdaşlarımızın istirahət ərazisindən zövq alması üçün bazalarımızın ətrafında parklar və istirahət zonaları yaradırıq. | Torpaq və biomüxtəliflik |
| Əhəmiyyətli dağılmalar | **Məlumat**<br>Məsul xidmət təminatçısı kimi başa düşürük ki, fəaliyyətlərindən irəli gələrək seçdiyimiz tərəfdaşlar ətraf mühitə potensial mənfi təsir göstərə bilər, buna görə də biz şirkətimizin ətraf mühitin qorunması ilə bağlı mövqeyinə uyğun olan müəssisələri dəstəkləməyə çalışırıq.<br>**Cavab tədbiri**<br>Biz əməliyyatlarımızın, xüsusən də təhlükəsizlik və işləklik baxımından ən yüksək keyfiyyət standartlarına tam cavab verməsinə çalışırıq. Eyni zamanda, əməkdaşlarımızın və podratçılarımızın təlim aldığı sərt fövqəladə prosedurlarımız var. | Suya qənaət |
| Təchizat zənciri | **Məlumat**<br>Məsul xidmət təminatçısı kimi başa düşürük ki, fəaliyyətlərindən irəli gələrək seçdiyimiz tərəfdaşlar ətraf mühitə potensial mənfi təsir göstərə bilər, buna görə də biz şirkətimizin ətraf mühitin qorunması ilə bağlı mövqeyinə uyğun olan müəssisələri dəstəkləməyə çalışırıq.<br>**Cavab tədbiri**<br>Satıcıların və təchizatçıların əməliyyatlarına nəzarət edə bilməsək də, kiminlə əməkdaşlıq etdiyimizə nəzarət edirik. Təchizat zənciri dolayı yolla istixana qazı emissiyalarımıza və ümumi ətraf mühitə təsirimizə töhfə verdiyinə görə, biz potensial biznes tərəfdaşlarımızı onların ətraf mühitin idarə edilməsi və riayət edilməsi prosedurları baxımından yoxlayırıq. | Davamlı təchizat zəncirinin idarə edilməsi |

# Çirklənməyə nəzarət

Biz məsul xidmət təminatçısı kimi başa düşürük ki, bəzən çətin hava şəraitində işləmək məcburiyyətində qaldığımız üçün xidmətlərimiz ətraf mühitə və yerli ekosistemlərə potensial mənfi təsir göstərə bilər. Bu cür risklərə cavab tədbiri olaraq biz daim beynəlxalq standartlara və yerli qaydalara tam uyğunluğumuzu saxlayırıq, həmçinin biznes tərəfdaşlarımızın və müştərilərimizin də uyğunluğunu təmin etməyə çalışırıq.

**Cədvəl 11. Dizel sərfiyyatı və İQ emissiyaları**

| Kateqoriya | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Dizel istehlakı, ton | 6,015 | 3,983 | 3,180.68 |
| Birbaşa İQ emissiyaları (Əhatə 1), ton $CO_2$e | 19,392 | 11,368 | 10,034.3 |

### HAVANIN ÇİRKLƏNMƏSİ

